KHAZAR REVIEW

№ 383 Aprel 2019

# XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ

ISSN 2218-2772

khazar-review.khazar.org

THE UNIVERSITY IMPACT RANKINGS
INAUGURAL PARTICIPANT

# XƏZƏR UNİVERSİTETİ "TİMES HİGHER EDUCATİON IMPACT RANKINGS 2019" REYTİNQ CƏDVƏLİNDƏ DÜNYANIN ƏN YAXŞI UNİVERSİTETLƏRİ ARASINDA




2019-cu il aprelin 3-də məşhur "Times Higher Education" ilk dəfə BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri"nə (DİM-lər) əsaslanan, sosial və iqtisadi töhfələrinə görə fərqlənən ən yaxşı dünya universitetlərini müəyyən edərək, "THE University Impact Rankings 2019" reytinq cədvəlini nəşr etmişdir. Reytinqin ilk nəşrinə 76 ölkədən 462 universitet daxil edilmişdir.

Sevindirici haldır ki, ümumiyyətlə, "Times Higher Education"in tarixində ilk dəfə Azərbaycandan bir universitet reytinq siyahısına daxil edilir. 2019-cu ildə nəşr edilən bu yeni reytinq cədvəlinə Azərbaycandan yeganə ali məktəb - Xəzər Universiteti daxil edilmişdir. Xəzər universiteti "Təhsilin keyfiyyəti" üzrə «301+», "Sənaye, innovasiya və infrastruktur" üzrə isə 201-300-cü sırada qərarlaşıb.

Xəzər Universitetinin bu siyahıya daxil olması, Azərbaycan təhsil sistemi adına, böyük nailiyyətdir və Universitetin tədris, tədqiqat və biliyin ötürülməsi sahəsində "Dayanıqlı İnkişaf Məqsədləri"nə dəstəyini təsdiq edir.

BMT-nin DİM-ləri bütün ölkələrdə düzgün iqtisadi və sosial davamlı inkişafa nail olmaq üçün nəzərdə tutulmuş məqsədlərdir. Bunlar 2015-ci ildə daha yaxşı dünya yaratmağın yolunun əməkdaşlıqdan keçdiyini vurğulamaq məqsədilə BMT üzv ölkələri tərəfindən qəbul olunmuşdur.

https://www.timeshighereducation.com/rankings/impact/2019

## KHAZAR UNIVERSITY AMONG TOP WORLD UNIVERSITIES IN "TIMES HIGHER EDUCATION UNIVERSITY IMPACT RANKINGS 2019"

On April 3, 2019 Times Higher Education published the first THE University Impact Rankings 2019, pioneering its initiative to recognize universities across the world for their social and economic impact, based on the United Nations' Sustainable Development Goals. The first edition includes 462 universities from 76 countries.

This year for the first time ever, a university from Azerbaijani entered the Times Higher Education Rankings, which is welcomed as joyful news within wide public.

Khazar University is the only University in Azerbaijan ranked 301+ in the world under SDG 4 'Quality Education' and 201-300 in SDG9 'Industry, Innovation and Infrastructure'.

Inclusion of Khazar University in this ranking is in itself a great achievement for both University and Azerbaijani higher education system, demonstrating University's commitment not just to supporting the Sustainable Development Goals through teaching, research and knowledge transfer, but also to incorporating the goals in Khazar University's internal practices, policies and procedures.

The United Nations Sustainable Development Goals (SDGs) are a set of goals that aim to support all countries in achieving economic, social and environmental sustainable development. They were adopted by all United Nations Member States in 2015, declaring a global recognition of the need for partnership in creating a better world.

https://www.timeshighereducation.com/rankings/impact/2019

# İÇİNDƏKİLƏR


**Tələbələr "Qış məktəbi"ndə iştirak etdilər .......... 4**
**Universitet xəbərləri .......... 6**
**Səfir Milos Strugar Xəzər Universitetində seminar keçirdi.......... 7**
**Yusuf Temel: "Azərbaycan mənim öz evim kimidir" (*"Əcnəbi tələbələrlə müsahibələr" silsiləsindən*).......... 11**
**Mimar Sinan universitetinin prorektoru Xəzər Universitetində.......... 12**
**İstanbul Aydın Universitetinin təsiscisi Xəzər Universitetində .......... 14**
**Professor Hamlet İsaxanlı Beynəlxalq musiqi festivalında .......... 17**
**Hamlet İsaxanlının şeirlərinə Murad Kajlayevin bəstələdiyi musiqilərin daxil olduğu iki kitab nəşr edilib .......... 18**
**Riyaziyyat departamenti Beynəlxalq Riyazi Fizika Cəmiyyətinin "Riyazi fizikanın operatorları, funksiyaları və sistemləri" konfransına dəstək qrantını qazandı .......... 21**
**Xəzər Universitetində əmək yarmarkası .......... 22**
**Hamlet İsaxanlı: "Klassikləri inkar cılızlıqdır" (*Cebhe.info*-ya müsahibə) .. 28**
**Kristina Reçkinova: "Xəzər Universitetinin verdiyi təhsil özümə inamımı artırır" (*"Əcnəbi tələbələrlə müsahibələr" silsiləsindən*).......... 31**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun xəbərləri .......... 32**
**Xəzər Universitetində "Hava - Yer - Dəniz qarşılıqlı əlaqələri" mövzusunda 1-ci Beynəlxalq konfrans keçirildi.......... 42**
***Mələk Kərimova*. Qadın və kişilərin düşüncə və problem həlletmə tərzləri .. 46**
**NDU xəbərləri .......... 48**
**Xəzər Universitetinin komandası "BHOS MATH CUP"-in ikincisi oldu ... 53**
***Varsha Maistry-Ahmed*. Upon our return .......... 55**
***Ceyms Coys*. Bədbəxt hadisə (hekayə) .......... 70**



1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Zemfira Qurbanova

Kompüter tərtibatçısı:
Gözəl Əkbərova

Foto:
Multimedia Mərkəzi

XƏZƏR UNİVERSİTETİ · BAKI · 1991

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published
since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial members:
Isa Habibbeyli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Zemfira Gurbanova

Computer graphics:
Gozal Akbarova
Photo:
Multimedia Centre



# TƏLƏBƏLƏR "QIŞ MƏKTƏBİ"NDƏ İŞTİRAK ETDİLƏR

# STUDENTS TOOK PART IN "WINTER SCHOOL"

Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakültəsinin bir qrup tələbə və işçi heyəti martın 8-dən 10-dək AMEA-nın Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında (ŞAR) keçirilən "Tələbələr üçün astronomiya qış məktəbi"ndə iştirak etdilər.

Azərbaycan Respublikası Gənclər Fondu tərəfindən XI qrant müsabiqəsi çərçivəsində maliyyələşdirilən layihə ŞAR, "Azərkosmos" ASC, Tusi-Bohm Planetarium və "AstroKlub" tələbə dərnəyinin birgə təşkilatçılığı ilə reallaşdırıldı. Tədbirin əsas məqsədi tələbələrin astronomiya və kosmos elminə maraqlarını artırmaq idi.

Üç gün davam edən qış məktəbində Xəzər Universitetinin tələbələri ilə birgə Bakı Dövlət Universiteti, ADA Universiteti, Milli Aviasiya Akademiyası, Moskva Dövlət Universitetinin Bakı filialı, Bakı Mühəndislik Universiteti və Qərbi Kaspi Universitetində təhsil alan 30-dan çox tələbəyə ŞAR-ın əməkdaşları tərəfindən astronomiyanın müxtəlif sahələrini əhatə edən məruzələr oxundu və onların sualları cavablandırıldı. Tələbələr, həmçinin, "Azərkosmos" ASC-də təşkil edilmiş seminarda da iştirak etdilər.

Sonda qış məktəbinin iştirakçılarına sertifikat təqdim edildi.

On 8th and 10th March, Group of students and staff from the School of Natural Sciences and Engineering at Khazar University participated in the "Winter School of Astronomy for Students" held at the Shamakhi Astrophysics Observatory named after Nasreddin Tusi (SAO).

This project, funded by Youth Foundation of the Republic of Azerbaijan within the framework of XI Scholarship contest, was jointly organized by SAO,"Azerkosmos" OJSC, Tusi-Bohm Planetarium and students association "AstroKlub". The main purpose of this event was to heighten students' interest in the astronomy and space science.

Within the three-day winter school Khazar University students together with more than 30 students, studying at Baku State University, ADA University, National Aviation Academy, Baku Branch of Moscow State University, Baku Engineering University, Western Kaspi University, had a chance to attend lectures encompassing different areas of astronomy, delivered by SAO employees and get answers to their questions. The students also attended a seminar organized at "Azercosmos" OJSC.

At the completion of the winter school the participants were given certificates.




azərkosmos
QIŞ MƏKTƏBİ
8-10 Mart









# DOKTORANTLARLA GÖRÜŞ
# MEETING WITH PHD STUDENTS

Martın 13-də Xəzər Univeritetinə bu il qəbul olunmuş doktorant və dissertantlarla görüş keçirildi. Görüşü giriş sözü ilə univeritetin Magistratura, doktorantura və elmi işlər bölməsinin koordinatoru Cabir Məmmədli açdı, doktorant və dissertantları təbrik etdi.

Universitetin rektoru vəzifəsini icra edən dosent İradə Xəlilova iştirakçıları salamladı, onlara uğurlar arzuladı.

Sonra C.Məmmədli təhsil prosesi, qaydalar və s. haqqında ətraflı məlumat verdi, sualları cavablandırdı.

On March 13, the meeting with recently admitted PhD students and those already working on their thesis, was held at Khazar University. The meeting was opened by Jabir Mammadli, the Coordinator of the Division of Graduate Studies and Research, who conveyed congratulatory remarks to PhD students and dissertates.

Then, Irada Khalilova, Acting Rector of the University welcomed the participants and wished them every success.

Afterwards, C. Mammadli made a presentation on educational process, rules, etc. and answered the questions.





# SƏFİR MİLOS STRUGAR XƏZƏR UNİVERSİTETİNDƏ SEMİNAR KEÇİRDİ

# AMBASSADOR MILOS STRUGAR DELIVERS A SEMINAR AT KHAZAR UNIVERSITY

Martın 13-də Conflux Araşdırmalar Mərkəzinin icraçı direktoru və BMT-nin Sülh prosesi üzrə baş məsləhətçisi səfir Milos Strugar Xəzər Universiteti tələbələri üçün seminar keçirdi. "Beynəlxalq və regional sülhqoruma siyasəti" adlanan seminar əsasən dövlətlərarası və dövlətdaxili münaqişələrdə vasitəçilik mövzusunu əhatə edirdi. Səfir Strugar tələbələri beynəlxalq sülh və təhlükəsizliyin qorunması üçün BMT tərəfindən həyata keçirilən fəaliyyətlər – münaqişənin qarşısının alınması və vasitəçilik, sülhyaratma, sülhə məcbur etmə və sülhqurma – barəsində məlumatlandırdı.

Mühazirə sual-cavab sessiyası ilə başa çatdı.

Mühazirədən sonra səfir Milos Strugar Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Elmar Mustafayevlə görüşdü. Görüşdə elmi araşdırmalar sahəsində əməkdaşlıq imkanları müzakirə edildi.

On March 13, Ambassador Milos Strugar, Executive director of the Conflux Center and UN Senior Mediation Adviser, delivered a lecture at Khazar University. Ambassador Strugar's Seminar, entitled "International and regional peacekeeping policy", was focused on inter-state and intra-state conflicts and mediation process in an occurrence of the conflicts. During the seminar the students were informed about the cycle of activities - conflict prevention and mediation, peacemaking, peace enforcement, peacebuilding - undertaken by the UN to maintain international peace and security throughout the world.

Ambassador Strugar's seminar was followed by Q&A session.

Following the seminar, Ambassador Milos Strugar met with Dr. Elmar Mustafayev, Head of the Political Science and Philosophy Department. Opportunities for mutual collaboration in research between Conflux Center and Political Science and Philosophy Department of Khazar University were discussed during the meeting.

# TƏBİƏT ELMLƏRİ VƏ MÜHƏNDİSLİK FAKÜLTƏSİNİN TƏLƏBƏLƏRİ BAKI KİTAB MƏRKƏZİNDƏ

# STUDENTS OF THE SCHOOL OF NATURAL SCIENCES AND ENGINEERING AT BAKU BOOK CENTER

Martın 13-də Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakültəsinin 1-ci kurs tələbələri "Dillər və ədəbiyyatlar" departamentinin müəllimi Hilalə İbadovanın rəhbərliyi ilə Bakı Kitab Mərkəzində ekskursiyada oldular. Tələbələr yeni nəşr olunmuş kitablarla – elmi və bədii ədəbiyyatlarla tanış oldular. Yekunda Azərbaycan ədəbiyyatına dair çap olunmuş yeni kitabların müzakirəsi aparıldı.

On March 13, 1st year students of Khazar University's School of Natural Sciences and Engineering visited Baku Book Center, led by Hilala Ibadova, instructor of the Languages and Literature Department. The students got acquainted with new books - literary and fine literature. Further on, new books published on Azerbaijani literature were discussed.







# SEMİNAR: "ELEARNİNG VƏ MOODLE"

# "ELEARNING AND MOODLE" SEMINAR

Martın 15-də Xəzər Universitetində Erasmus + PETRA layihəsi (573630-EPP-1-2016-1-AZ-EPPKA2-CBHE-JP) çərçivəsində "eLearning və MOODLE" adlı seminar keçirildi. Seminar layihə çərçivəsində yaradılmış Elektron laboratoriyanın açılışı ilə başladı. Tədbirdə Xəzər Universiteti Kitabxana-İnformasiya Mərkəzinin əməkdaşları tərəfindən elektron təhsil, MOODLE platforması, işləmə mexanizmi, istifadə qaydaları, DSpace və ondan istifadə qaydaları, həmçinin, DSpace platformasına materialların yüklənməsi haqqında geniş məlumat verildi və praktik olaraq iştirakçılara göstərildi.

Seminarda Xəzər Universitetinin əməkdaşları ilə yanaşı, layihənin tərəfdaşları olan Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti və Azərbaycan Universitetinin əməkdaşları da iştirak edirdilər.

On $15^{th}$ of March Khazar University organized seminar on eLearning and MOODLE within PETRA ERASMUS+ project. The seminar started with the opening of the Electronic Laboratory, which was established within the framework of the project. Members of Library and Information Center at Khazar led the seminar and discussed the details of how MOODLE platform works, how to use the updated eLearning system, opportunities within DSpace of Khazar, how to upload materials and how to use it. Alongside with Khazar University staff, members of Azerbaijan University of Languages, Baku Slavic University and Azerbaijan University, partners of the project, also participated in the seminar.

# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜƏLLİMİ KONFRANSDA ÇIXIŞ ETDİ

# TEACHER OF ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT DELIVERED SPEECH AT THE CONFERENCE

Martın 15-də Azərbaycan Dillər Universitetində "Tərcümə problemləri" adlı respublika elmi-praktik konfransı keçirildi. Konfransda Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin müəllimi İlham Tağıyev "Qayıqdakı üç "C" "L" haqqında heç nə demir" (İngilis dilindəki linqvistik zarafatlar azərbaycanca) adlı məruzə ilə çıxış etdi.

On March 15, the National Scientific-Practical Conference dedicated to the "Translation Problems" was held at the Azerbaijan University of Languages. At the conference, Ilham Tagiyev, teacher of the English Language and Literature Department at Khazar University delivered a lecture on "*Three 'C' in a Boat to Say Nothing of the 'L' (English Linguistic Jokes in Azerbaijani)*".



## GƏNC ŞAİRLƏR TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜLƏR

## YOUNG POETS MET WITH KHAZAR UNIVERSITY STUDENTS

Martın 15-də gənc şairlər Emin Piri və İntiqam Yaşar Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin tələbələri ilə görüş keçirdilər. Diskussiya formasında təşkil olunan görüşdə müəlliflər şeirlərini oxudular, tələbələrin suallarını cavablandırdılar.

Görüşün təşkilatçısı və moderatoru Xəzər Universitetinin müəllimi Qardaşxan Əzizxanlı çıxışında tələbələrlə belə görüşlərin davamlı xarakter daşıyacağını bildirdi.

On March 15, young poets Emin Piri and Intigam Yashar met with Khazar University students, from the Languages and Literature Department. During the meeting, organized as an interactive discussion, the authors recited their poems and answered questions from the students. Qardashkhan Azizkhanli, the organizer and moderator of the meeting, Khazar University's teacher, said that such meetings with students would be continuous.

## TƏLƏBƏLƏRİN CƏLB OLUNMASI ÜZRƏ İŞÇİ QRUPUN RƏHBƏRİ REGİONLARDA OLDU

## HEAD OF WORKING GROUP ON ATTRACTING STUDENTS VISITED REGIONS

Martın 14-ü və 15-də Xəzər Universitetini regionlarda tanıtma məqsədilə universitetə tələbələrin cəlb olunması üzrə işçi qrupun rəhbəri professor Fuat Rəsulov Xaçmaz, Quba və Qusar şəhərlərinə səfər etdi.

Səfərin əsas məqsədi regionların təhsil şöbələri ilə əlaqələr yaratmaq, 11-ci sinif şagirdləri ilə görüşüb, universitet barəsində məlumat vermək idi.

Səfər uğurlu keçdi, səlahiyyətli şəxslərlə görüşlər keçirildi, universitet barəsində məlumatlar verildi, universitetin bukletləri yayıldı və əməkdaşlıq barəsində razılıqlar əldə olundu.

On March 14-15, Professor Fuad Rasulov, Head of the Working Group on Attracting Students to Khazar University, visited the cities of Khachmaz, Guba and Gusar aiming to promote University in the regions.

The main goal of the visit was to establish relations with the regional education departments, to meet with the 11th grade students and to inform them about the University.

The visit was a success, meetings were conducted with authorized persons, information was provided about the University, leaflets were spread and cooperation agreements were concluded.



*"Xəzər" və dünya"*

**"Əcnəbi tələbələrlə müsahibələr" silsiləsindən**

# YUSUF TEMEL: "AZƏRBAYCAN MƏNİM ÖZ EVİM KİMİDİR"

*"Khazar and World"*

**From the series "Interviews with Foreign Students"**

# "I FEEL AT HOME IN AZERBAIJAN" YUSUF TEMEL

"Azərbaycanda artıq ikinci ilimdir və buranı öz evim hesab edirəm. Ölkənin insanları çox mehriban və səmimi olmaqla yanaşı, həm də kömək lazım olduqda, əllərindən gələni edirlər," – Xəzər Universitetinin Türkiyədən olan və inşaat mühəndisliyi üzrə ikinci kurs bakalavr tələbəsi Yusuf Temel deyir.

Yusuf bildirir ki, təhsil almaq üçün sırf inşaat mühəndisliyini seçməsinin səbəbi ailəsidir: "Bu ixtisası ona görə seçdim ki, bu bizim bir növ ailə peşəmizdir. Mənim atam da inşaat mühəndisidir və mənim gözümdə o, sahəsinin mütəxəssisi kimi idealdır.

Seçdiyin sahənin mütəxəssisi kimi yetişməkdə Xəzər Universitetinin tədris sistemi böyük rol oynayır. Xüsusən də, fizika dərslərini çox sevirəm, çünki bu dərsdə bilmədiyim çox şeyi öyrənirəm. Təlim metodları tələbələrin qavramasına uyğun təşkil olunmuşdur və bu da müxtəlif vasitələrlə keçilən mövzuları mənimsəməyimizi asanlaşdırır. Hər hansı bir nəzəriyyəni öyrəndikdə dərhal onunla bağlı nümunələr üzərində işləyirik və praktiki tapşırıqları yerinə yetiririk".

Xəzər Universitetindən məzun olduqdan sonra Yusuf Almaniyada işləməyi planlaşdırır. O inanır ki, təhsili boyu əldə etdiyi bilik və bacarıqlar ona bu planını reallaşdırmağa imkan yaradacaq: "Təhsilimi Xəzərdə başa vurduqdan sonra Almaniyada inşaat mühəndisi kimi işləməyi və atamın yolunu davam etdirməyi planlaşdırıram.

Keyfiyyətli təhsil almaq istəyən hər kəsə Xəzər Universitetini məsləhət görürəm. Burada nailiyyət əldə etmək üçün çox çalışmalı, oxumalı olacaqsınız, amma zəhmətinizin bəhrəsini də mütləq görəcəksiniz".

**Müsahibəni hazırladı: Lamiyə Pənahova,**
*Beynəlxalq Əlaqələr Ofisinin koordinatoru*

"It's my second year in Azerbaijan and it feels like home. People are very kind and sincere here and they do their best to help in case you need it" says Yusuf Temel, a second-year bachelor student from Turkey majoring in Civil Engineering at Khazar University.

Yusuf explains that his career choice was influenced by his family "I chose to study civil engineering because it is our family profession: my father is also a civil engineer and he is my idol as a professional in this field."

"Studying at Khazar University is rewarding in sense of growing as a professional in your chosen field. My favorite subject so far is Physics because it gives me a chance to learn new things and theories that I did not know before. Teaching methods are well-chosen, allowing students to acquire the knowledge in an effective way. When we learn about a theory in class, we also learn examples around it and complete practical tasks."

After graduating from Khazar University Yusuf plans on working in Germany. He is sure the knowledge and skills he gains at Khazar University will prepare him to pursue his goal: "After graduating from Khazar I am planning to work in Germany in the field of civil engineering and follow my father's path."

"I would recommend Khazar University to everyone who wants to receive a good quality education. If you want to succeed here – you must work hard. Your hard work will be rewarded."

Interview prepared by **Lamiya Panahova,**
*Coordinator at International Affairs office*



# MİMAR SİNAN UNİVERSİTETİNİN PROREKTORU XƏZƏR UNİVERSİTETİNDƏ

# VICE-RECTOR OF MIMAR SINAN UNIVERSITY VISITED KHAZAR UNIVERSITY

Martın 15-də Türkiyə Cümhuriyyəti Mimar Sinan Universitetinin prorektoru professor Süleyman Karataş Xəzər Universitetinin qonağı oldu. Görüş əsnasında professor Süleyman Karataş Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədovanın müşayiətilə universiteti gəzdi, dizayn ixtisasında oxuyan tələbələrlə görüşdü və onların işləri ilə tanış oldu.

Sonra Xəzər Universitetinin rektoru vəzifəsini icra edən dosent İradə Xəlilova ilə görüşən qonağa Xəzər Universiteti və gələcək əməkdaşlıq imkanları haqqında məlumat verilərək, fikir mübadiləsi aparıldı. Görüşdə Xəzər Universitetinin Tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyev, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədli, Musiqi və incəsənət departamentinin müdiri professor Zülfiyyə Sadıqova, departamentin müəllimi, dizayn ixti-sasının koordinatoru Afaq Kərimova və universitetin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Turan Cəfərova iştirak edirdilər.

Görüşdən sonra qonaq Mədəniyyət Mərkəzində təşkil olunmuş çay süfrəsində Xəzər Universitetinin Kamera orkestrinin ifasını dinlədi, ona Xəzər Universitetinin hədiyyələri təqdim olundu. Professor Süleyman Karataş öz növbəsində Xəzər Universiteti rəhbərliyinə qonaqpərvərlik üçün təşəkkür edərək, iki universitet arasında əməkdaşlığın möhkəmlənməsi üçün səy göstərəcəyini vurğuladı.

On March 15, Professor Suleyman Karatash, Vice-Rector of Mimar Sinan University of the Republic of Turkey visited Khazar University. During the meeting Professor Suleyman Karatash, accompanied by Associate Professor Elza Samedova, Dean of the School of Humanities, Education and Social Sciences, met with the students majoring in design course and got acquainted with their work. Following that, during the meeting with Associate Professor Irada Khalilova, the Rector of Khazar University, the guest was provided with an information on Khazar University and prospective collaboration opportunities and thus the exchange of ideas took place. The meeting was attended by Professor Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs, Associate Professor Elza Samedova, Dean of the School of Humanities, Education and Social Sciences, Associate Professor Zulfiyya Sadigova, Head of Music and Fine Arts Department, Afag Karimova, Instructor and Coordinator of Design Specialty and Turan Jafarova, Director of International Affairs Office.

Further on, the guest listened to the performance of the Khazar University Chamber Orchestra organized with a tea ceremony at the Cultural Center. The guest was presented with courtesies from Khazar University. Professor Suleyman Karatash, in his turn, expressed his gratitude to the management of Khazar University for hospitality and stressed that he will make every effort to strengthen cooperation between the two Universities.

MİMAR SİNAN
GÜZEL SANATLAR
ÜNİVERSİTESİ











# İSTANBUL AYDIN UNİVERSİTETİNİN TƏSİSÇİSİ XƏZƏR UNİVERSİTETİNDƏ

# THE FOUNDER OF ISTANBUL AYDIN UNIVERSITY VISITED KHAZAR UNIVERSITY

Martın 28-də İstanbul Aydın Universitetinin təsisçisi Mustafa Aydın, universitetin prorektoru Fatih Aydın, Xarici Əlaqələr Departamentinin rəhbəri İrem Azman, təsisçinin özəl qələm müdiri Tuğçe Koçkar və Azərbaycan üzrə nümayəndəsi Fərid Şahbazlı Xəzər Universitetində oldular.

Xəzər Universitetinin rektoru vəzifəsini icra edən dosent İradə Xəlilova qonaqları səmimi salamlayaraq, onlara universitet haqqında məlumat verdi. Mustafa Aydın və İrem Azman Aydın Universiteti haqqında slaydlarla təqdimat keçirdilər, sualları cavablandırdılar.

Görüşdə Xəzər Universitetinin prorektoru Məhəmməd Nuriyev, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Hassan Niknafs, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Xarici əlaqələr şöbəsinin müdiri Turan Cəfərova və digər şəxslər iştirak edirdilər. Mustafa Aydın Xəzər Universitetinin rektoru vəzifəsini icra edən İradə Xəlilovaya hədiyyə təqdim etdi.

On March 28, Mustafa Aydin, the Founder of Istanbul Aydin University, Fatih Aydın, Vice-Rector of the University, Irem Azman, Head of International Relations Department, Tugche Kochkar, Special Assistant to the Founder, Homme de Lettres and Farid Shahbazlı, Representative of Azerbaijan visited Khazar University. Associate Professor Irada Khalilova, Rector of Khazar University, welcomed the guests and provided them with information about the University. Mustafa Aydin and Irem Azman made a presentation about Aydin University and answered the questions. Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs, Hassan Niknafs, Dean of the School of Engineering and Applied Sciences, Jeyhun Mammadov, Dean of the School of Economics and Management, Alovsat Amirbeyli, Director for Public Relations and Media, Turan Jafarova, Director of International Affairs Office and others took part at the meeting. M.Aydin presented his gifts to the Rector of Khazar University.







# PSİXOLOGİYA DEPARTAMENTİ "KOQNİTİV İNKİŞAF" ADLI SEMİNAR KEÇİRDİ

# DEPARTMENT OF PSYCHOLOGY HELD SEMINAR ON "COGNITIVE DEVELOPMENT"

Martın 28-də Xəzər Universiteti Psixologiya departamentinin müəllimi Nilufər Əlizadənin dəvəti ilə Psixologiya Elmi-Tədqiqat İnsitutunun nəzdində fəaliyyət göstərən Psixoloji Xidmət və Reabilitasiya Mərkəzinin direktoru Nərmin Quliyeva Xəzər Universitetində qonaq müəllim qismində çıxış etdi.

Seminarın əsas mövzusu "Koqnitiv inkişaf" olmaqla yanaşı, psixoloq Nərmin Quliyeva öz təcrübələrini də tələbələrlə paylaşaraq, onların suallarını cavablandırdı. Tələbələr diskussiyada fəal iştirak etdilər.

On March 28, Narmin Guliyeva, Director of the Psychological Service and Rehabilitation Center at Psychology Research Institute, delivered a talk as guest lecturer at Khazar University at the invitation of Nilufar Alizade, instructor of Psychology at Khazar University Psychology Department. The main topic of the seminar was dedicated to "Cognitive Development", along with that psychologist Narmin Guliyeva shared her experiences with the students and answered their questions. Students actively participated in the discussion.








## "TÜRKİYƏ-AZƏRBAYCAN: TƏHSİLİN BİRGƏ İNKİŞAF YOLLARI" MÖVZUSUNDA KONFRANS

## CONFERENCE ON "TURKEY-AZERBAIJAN: WAYS OF JOINT DEVELOPMENT OF EDUCATION"

Martın 28-də Bakı şəhərində EURİE-nin (Avrasiya Universitələr Birliyi) "Türkiyə-Azərbaycan: Təhsilin birgə inkişaf yolları" mövzusunda elmi-praktik konfransı keçirildi. Konfransı giriş sözü ilə İstanbul Aydın Universitetinin təsisçisi, EURIE-nin Prezidenti Mustafa Aydın açaraq, Türkiyə və Azərbaycan universitetlari arasında yaranmış əlaqələrdən və gələcəkdə qarşıda duran məsələlərdən danışdı.

Konfransda millət vəkilləri Musa Qasımlı, Elman Nəsirov, Jalə Əliyeva, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, "Odlar Yurdu" Universitetinin rektoru professor Əhməd Vəliyev, Xəzər Universitetinin rektoru vəzifəsini icra edən dosent İradə Xəlilova və digərləri çıxış edərək, Azərbaycan universitetlərinin bugünkü vəziyyəti haqqında danışdılar.

Sonda qonaqların şərəfinə ziyafət verildi.

On March 28, Scientific-Practical Conference on "Turkey-Azerbaijan: Ways of Joint Development of Education" was held by EURIE (Eurasian Union of the Universities). Opening the Conference, Mustafa Aydin, the Founder of the Instanbul Aydin University, the President of EURIE, spoke about the relations between the Universities of Turkey and Azerbaijan and future challenges to face. At the conference Musa Gasimli, Elman Nasirov, Jala Aliyeva, the MPs, Mustafa Babanli, Rector of Azerbaijan State University of Oil and Industry, Elmar Gasimov, Rector of Baku Higher Oil School, Professor Ahmed Valiyev, Rector of "Odlar Yurdu" University, Associate Professor Irada Khalilova, Acting Rector of Khazar University Rector and others delivered talks about the current state of the Azerbaijani universities.

At the end of the Conference, a dinner was hosted in honor of the guests.



# PROFESSOR HAMLET İSAXANLI BEYNƏLXALQ MUSİQİ FESTİVALINDA

# PROFESSOR HAMLET ISAKHANLI IN INTERNATIONAL MUSIC FESTIVAL

Martın 29-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Şuranın müşaviri Nailəxanım İsayeva SSRİ xalq artisti, bəstəkar, dirijor, pianoçu və pedoqoq, Dağıstan peşəkar musiqisinin əsasını qoyan şəxsiyyətlərdən biri Murad Kajlayevin dəvətilə Dağıstan Respublikasının (Rusiya Federasiyası) Mahaçqala şəhərində Beynəlxalq Musiqi Festivalı çərçivəsində konsert proqramında iştirak etdilər.

Konsertdə soprano Albina Xripkova simfonik orkestrin müşayiətilə Murad Kajlayevin Hamlet İsaxanlının altı şeirinə bəstələdiyi əsərlərini ifa etdi. Həmçinin, konsert proqramı zamanı bəstələnmiş əsərlərin çap olunduğu iki kitab da təqdim olundu.

On March 29, Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and Nailakhanim Isayeva, Adviser to the Board, took part in the concert program of the International Music Festival in Makhachkala city, Dagestan Republic (Russian Federation), upon the invitation of Murad Kajlayev, Honored Artist of the USSR, composer, conductor, pianist and pedagogue, one of the founders of Dagestan's professional music.

During the Concert, the soprano Albina Hripkova accompanied by the symphonic orchestra performed compositions of Murad Kajlayev, who set 6 poems by Hamlet Isakhanli to music. It is worth noting that two compiled books of compositions were presented during the concert program.



# HAMLET İSAXANLININ ŞEİRLƏRİNƏ MURAD KAJLAYEVİN BƏSTƏLƏDİYİ MUSİQİLƏRİN DAXİL OLDUĞU İKİ KİTAB NƏŞR EDİLİB

# HAMLET ISAKHANLI'S POEMS SET TO MUSIC BY MURAD KAJLAYEV WERE PUBLISHED IN TWO BOOKS

2019-cu ildə Moskvadakı "Современная музыка" ("Çağdaş musiqi") nəşriyyatında SSRİ xalq artisti, bəstəkar, dirijor, pianoçu və pedoqoq, Dağıstan peşəkar musiqisinin əsasını qoyan şəxsiyyətlərdən biri Murad Kajlayevin iki kitabı nəşr olunmuşdur. Hər iki kitabın əsasını Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının altı şeirinə yazılmış musiqi əsərlərinin (romans, mahnı, tanqo, vals) not yazıları təşkil edir. Kitablara bəstəkar Murad Kajlayev giriş sözü yazmış və burada Murad Kajlayev və Hamlet İsaxanlının həyat və yaradıcılıqları haqqında kiçik oçerklər də verilmişdir.

Kitabların ön sözündə bəstəkar Murad Kajlayev 2018-ci ilin sentyabrında Professor İsaxanlının dəvəti və təşkilatçılığı ilə Üzeyir Hacıbəyov adına Beynəlxalq Musiq Festivalı çərçivəsində M.Kajlayevin yaradıclıq gecəsinin keçirilməsi, habelə, illər sonra gənclik illərinin və valideynlərinin şəhəri Bakıda yenidən olması haqqında təəssüratlarını bölüşmüş və Xəzər Universitetində musiqi və digər tədbirlərin necə yüksək səviyyədə keçirildiyini vurğulamışdır. Bakıda olduğu zaman professor Hamlet İsaxanlıdan onun "Təzadlar" ("Контрасты") adlı şeirlər kitabının rus dilində olan nüsxəsini hədiyyə alan bəstəkar M.Kajlayev yeni kitablarında nəşr olunmuş musiqi əsərlərini bəstələmək üçün onu təsirləndirən Hamlet İsaxanlıya məxsus altı sevgi şeirini də bu kitabdan seçmişdir.

Bu kitablara professor Hamlet İsaxanlının "Səni sevdim çox sadəcə..." ("Я просто очень вас люблю"), "İnciçiçəyi" ("Ландыш"), "Uşaqlıqda qalan buludlar" ("Облака детство"), "Deyirdim ki..." ("Я говорил слова"), "Qoşa çaylar" ("Две речки"), "Sən həyatdan dadlısanmış" ("Желанней жизни") şeirlərinə bəstələnmiş musiqilər daxildir.

In 2019, the Moscow publishing house "Sovremennaya Muzyka" (Contemporary Music) published two books by Murad Kajlayev, Honored Artist of the USSR, composer, conductor, pianist and pedagogue, one of the founders of Dagestan's professional music. The basis of both books comprises the musical compositions (romances, songs, tango, waltz) set 6 poems by Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors, to music. The composer Murad Kajlayev wrote the introductory note and presented short essays on the life and creativity of Murad Kajlayev and Hamlet Isakhanli. The composer Murad Kajlayev shared his impressions on holding a creative evening within the framework of Uzeyir Hajibeyov International Music Festival, organized upon the initiative and invitation of Professor Isakhanli in September 2018, highlighting how musical and other events were always held at a very high level at Khazar University. He also shared his feelings about the years of his youth and his parent's revisiting Baku. When he was in Baku, having received Russian version of the book entitled "Contrasts" ("Контрасты") from Professor Isakhanli, composer M. Kajlayev chose Hamlet Isakhanli's six love poems, that influenced him to compose his musical compositions in his new book.

These books include Professor Isakhanli's poems such as: "I Just Love You So Much ..." ("Səni sevdim çox sadəcə..."), "Lily" ("İnciçiçəyi"), "The Clouds of Childhood" ("Uşaqlıqda qalan buludlar"),

"I Said the Words..." ("Deyirdim ki..."), "Two Rivers" ("Qoşa çaylar"), and "You Are Sweater than Life" ("Sən həyatdan dadlısanmış").

# ОТ АВТОРА




В сентябре 2018 года я был приглашён в Баку, где в дни Международного фестиваля им. Узеира Гаджибекова состоялись два моих авторских вечера: симфонический и камерный. Встреча с городом юности, городом моих родителей, городом, который дал мне путёвку в творческую жизнь, встреча с коллегами - были для меня очень ответственны и, конечно, волнительны. К счастью, всё прошло на высоте.

Заключительный камерный концерт состоялся в зале им. Фикрета Амирова, в новом уютном зале ведомства крупного университета «Хазар», созданного недавно в Азербайджане. Приветствовал нас его создатель, ректор университета, человек высокой культуры, поэт и общественный деятель, профессор Гамлет Исаханлы (Исаев).




После концерта Гамлет Абдуллаевич преподнёс мне последнюю книгу своих стихов «Контрасты», изданную на русском языке. Я увлёкся его стихами и по возвращении в Дагестан сразу же сел за работу, выбрав для своего альбома шесть стихотворений «О любви». Тронули они меня своей лиричностью, откровенностью и наряду с этим доступной современностью. И поэтому альбом я создавал с некоторым уклоном в популярный жанр (песня, романс, вальс, танго). Совместно с издательством «Современная музыка» выношу своё сочинение на суд слушателя, оценка которого станет для меня показательной.

Мурад КАЖЛАЕВ,
*декабрь 2018 г.*



# TANINMIŞ AKTYOR HAMLET İSAXANLININ ŞEİRLƏRİNİ SƏSLƏNDİRDİ

# FAMOUS ACTOR RECITED HAMLET ISAKHANLI'S POEMS

Azərbaycanın tanınmış teatr və kino sənətçisi, bir sıra kitablar və bir çox şeirlər səsləndirməklə tanınan Kamran M.Yunis Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Son xatirələr", "Gedin, deyin anama", "Sənsizlik", "Dəniz sahilində görüş" və "Ziyarət" poemasından bir parça olan "Dərdini göyə açardı" adlı şeirlərini səsləndirərək, öz *YouTube* səhifəsində yerləşdirmişdir.

Şeirləri Kamran M.Yunisin ifasında bu linklər vasitəsilə dinləmək olar:

"Son xatirələr"

*https://www.youtube.com/watch?v=b0ti8qAh6cI&t=2s*

–"Gedin, deyin anama" –

*https://www.youtube.com/watch?v=d_RpttGykw0*

"Sənsizlik" –

*https://www.youtube.com/watch?v=dgg39i1Q-wA*

"Dəniz sahilində görüş" –

*https://www.youtube.com/watch?v=ChGnCcnIf6g*

"Dərdini göyə açardı" (Used to disclose her grief to the skies) -

*https://www.youtube.com/watch?v=15uY4m7bY-M*

Kamran M. Yunis, a famous Azerbaijani theater and movie artist, who is also known for reciting several books and many poems, recited the poems of Prof. Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, entitled as "Son xatirələr" (Last memories), "Gedin deyin anama" (Go and tell my mother), "Sənsizlik" (Being without you), "Dəniz sahilində görüş" (Meeting on the seashore) and "Dərdini göyə açardı" (Used to disclose her grief to the skies), which is also a part of his long poem named "Ziyarət" (Pilgrimage). The recordings of these poems in Kamran M. Yunis performance were posted on his YouTube page.

Please, use below links to listen to those recitals by Kamran M. Yunis:

"Son xatirələr" (Last memories) - *https://www.youtube.com/watch?v=b0ti8qAh6cI&t=2s*

"Gedin deyin anama" (Go and tell my mother) - *https://www.youtube.com/watch?v=d_RpttGykw0*

"Sənsizlik" (Being without you) - *https://www.youtube.com/watch?v=dgg39i1Q-wA*

"Dəniz sahilində görüş" (Meeting on the seashore) - *https://www.youtube.com/watch?v=ChGnCcnIf6g*

"Dərdini göyə açardı" (Used to disclose her grief to the skies) - *https://www.youtube.com/watch?v=15uY4m7bY-M*

## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞININ MƏQALƏSİ ÇAP OLUNUB

## KHAZAR FACULTY MEMBER'S ARTICLE PUBLISHED

Xəzər Universitetinin ingilis dili və ədəbiyyatı departamentinin müəllimi Milana Abbasovanın (PhD namizəd) (Nərminə Məmmədovanın həmmüəllifliyi ilə) "Azərbaycanda ingilis dilinin tədrisində rəqəmsal texnologiyaların rolu" adlı məqaləsi Thomson Reuters Web of Science indeksli "International Journal of English Linguistics" (IJEL) jurnalında çapdan çıxmışdır.

"International Journal of English Linguistics" (IJEL) jurnalı Kanada Elm və Təhsil Mərkəzi tərəfindən nəşr olunan, iki anonim rəy əsasında çap olunan beynəlxalq jurnaldır.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

*http://www.ccsenet.org/journal/index.php/ijel/issue/view/0/2038*

An article "The Role of Digital Technology in English Language Teaching in Azerbaijan" published by Milana Abbasova (PhD can.) and coauthored by Narmina Mammadova, an instructor of the English Language and Literature department of Khazar University, was published in "International Journal of English Linguistics" (IJEL), indexed with Thomson Reuters Web of Science.

IJEL is an international, double-blind peer-reviewed, journal published by the Canadian Center of Science and Education.

A link to the article:

*http://www.ccsenet.org/journal/index.php/ijel/issue/view/0/2038*

# RİYAZİYYAT DEPARTAMENTİ BEYNƏLXALQ RİYAZİ FİZİKA CƏMİYYƏTİNİN "RİYAZİ FİZİKANIN OPERATORLARI, FUNKSİYALARI VƏ SİSTEMLƏRİ" KONFRANSINA DƏSTƏK QRANTINI QAZANDI

# MATHEMATICS DEPARTMENT RECEIVED "OPERATORS, FUNCTIONS, AND SYSTEMS OF MATHEMATICAL PHYSICS" GRANTFROM INTERNATIONAL ASSOCIATIONOF MATHEMATICAL PHYSICS

Xəzər Universitetinin Riyaziyyat Departamentinin təşkilatçılığı ilə 10-14 İyun, 2019-cu il tarixlərində ikinci "Riyazi fizikanın operatorları, funksiyaları və sistemləri" beynəlxalq konfransı keçiriləcəkdir. Konfrans təşkilatçıları Riyazi Fizika sahəsində dünyanın ən mötəbər cəmiyyətlərindən biri hesab edilən "Beynəlxalq riyazi fizika cəmiyyəti"-nin konfransa dəstək qrantını qazanıb. Bu cəmiyyət ikinci "Riyazi fizikanın operatorları, funksiyaları və sistemləri" konfransını özünün klassifikasıyasına nəzərən B kateqiriyalı konfrans kimi tanıyıb və konfransın keçirilməsinə maliyyə dəstəyi ayırıb. Qeyd edək ki, Beynəlxalq Riyazi Fizika Cəmiyyəti riyazi fizika sahəsində A kateqoriyalı konfrans olaraq yalnız hər üç ildən bir təşkil olunan Beynəlxalq Riyazi Fizika Konqresini tanıyır. Bu konqres riyaziyyat sahəsində ən əlamətdar hadisələrdən biri sayılır və burada riyazi fizika sahəsində müstəsna elmi uğurlarına görə üç riyaziyyatçıya "Henri Puankare" mükafatı təqdim edilir. (Sitat: 1997-ci ildə təsis edilmiş bu mükafat riyazi fizika sahəsində müstəsna mühüm elmi araşdırmalara və riyaziyyatın bu geniş sahəsinin yeni inkişafının təməlini təşkil edən araşdırmalara görə verilir). Bir neçə ardıcıl B kateqoriyalı konfrans keçirmiş təşkilat bu konqresə ev sahibliyi etmək üçün namizəd ola bilir.

Daha geniş məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

*https://sites.google.com/view/ofsmp2019*

*http://www.iamp.org/page.php?page=page_conferences_b (Bu siyahıda "Operators, Functions, and Systems of Mathematical Physics" konfransını görmək mümkündür)*

*http://www.iamp.org/page.php?page=page_congress*

*http://www.iamp.org/page.php?page=page_prize_poincare*

From June 10 to 14, the 2nd International Conference "*Operators, Functions, and Systems of Mathematical Physics*" will be held by the Department of Mathematics of Khazar University. The conference organizers have received support grant from the International Association of Mathematical Physics (IAMP), one of the world's most reputable societies in the field of mathematical physics. This Association has recognized the 2nd Conference "*Operators, Functions, and Systems of Mathematical Physics*" as B category for its classification and has allocated financial support for organizing the Conference.

It should be noted that the IAMP supports conferences in Mathematical Physics in three categories (A, B, C) and for the A category conference it only recognizes the International Mathematical Physics Congress, held once every three years. This Congress is one of the most remarkable events in the field of mathematics and provides three mathematicians with the "Henri Poincaré" award for exceptional scientific achievements in the field of mathematical physics (quote: *he Prize was created in 1997 to recognize outstanding contributions in mathematical physics, and contributions which lay the groundwork for novel developments in this broad field)*. A number of consecutive B-category organizations may be nominated to host this congress.

More information can be obtained through these links:

*https://sites.google.com/view/ofsmp2019*

*http://www.iamp.org/page.php?page=page_conferences_b* (In this list you can find Conference "*Operators, Functions, and Systems of Mathematical Physics*")

*http://www.iamp.org/page.php?page=page_congress*

*http://www.iamp.org/page.php?page=page_prize_poincare*





# XƏZƏR UNİVERSİTETİNDƏ ƏMƏK YARMARKASI

Martın 29-da Xəzər Universitetində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı Məşğulluq İdarəsi ilə birlikdə əmək yarmarkası keçirildi. Tədbiri giriş sözü ilə Xəzər Universitetinin rektoru vəzifəsini icra edən dosent İradə Xəlilova açaraq, karyera yarmarkasının əhəmiyyətindən danışdı. Bakı Şəhər Məşğulluq Mərkəzi idarə rəisinin müavini Fatimə Ələkbərova və digərləri çıxış edərək, əmək yarmarkasının vacibliyindən bəhs etdilər.

(Ardı səh.24-də)





# JOB FAIR AT KHAZAR UNIVERSITY

On March 29, , the Job fair, being jointly organized with the Ministry of Labor and Social Protection of Population of the Republic of Azerbaijan, was held at Khazar University. In an opening statement, Associate Professor Irada Khalilova, Acting Rector of Khazar University spoke about the importance of Career fair. Fatima Alakbarova, Deputy Head of Baku City Employment Center and others also delivered talks emphasizing the significance of the Job fair.

*(To be continued page 24)*






Əmək yarmarkasında Bakı şəhərində fəaliyyət göstərən 55 şirkət iştirak edirdi. Bu şirkətlər tərəfindən 278 vakant yer iş axtaranlara təqdim olundu. Xəzər Universitetinin yuxarı kurs tələbələri 4 saat sürən əmək yarmarkasında fəal iştirak edərək, onlara uyğun işlər üçün müraciət etdilər.

Əmək yarmarkası haqqında ARB televiziya kanalında reportaj yayımlandı. Reportajı bu link vasitəsilə izləmək olar: *http://youtu.be/skk8MQ_nsRo*

Overall, 55 companies operating in Baku participated in the fair. 278 vacancies were presented to the job seekers by these companies. Senior students of Khazar University actively participated in the 4-hour Job fair and filled in the job applications for the relevant job announcements.

An ARB TV reported about the Job fair. The report can be viewed through this link: *http://youtu.be/skk8MQ_nsRo*






EYSƏLOĞLU





# SALAM SARVAN TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜ

# SALAM SARVAN MET WITH STUDENTS

Martın 29-da Xəzər Universitetində Salam Sarvan yaradıcı yazı dərsinin qonağı oldu. Tələbələr –Suqra Əliyeva, Səkinə Ələkbərova, Sadiq Mirzəyev şairin yaradıcılığını ümumiləşdirən təqdimatla çıxış etdilər. Xəzər Süleymanlı şairin "Yaşaya bilmirəm" şeirini oxudu. Dillər və ədəbiyyatlar departamentinin müəllimi Qardaşxan Əzizxanlı S.Sarvanın yaradıcılığından danışdı.

S.Sarvan son "Heykəl tənhalığı" kitabından şeirlər oxudu.

2019-cu il aprelin 1-də ***Qaynar.info*** və ***Kulis.az/*** saytları görüş barədə məlumat yaymışlar. ***Kulis.az*** saytı tədbirdən fotonu öz "Seçilmiş" guşəsinə yerləşdirmişdir.

Daha ətraflı məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

*https://qaynarinfo.az/az/gunesin-zirvelerde-unudub-atdii-qar-kimi-tenha-qalsam-da-foto/*

*http://kulis.az/news/24203*

On March 29, Salam Sarvan as an honored guest took part at the creative writing lesson at Khazar University. Students – Sugra Aliyeva, Sakina Alekberova, Sadig Mirzayev made a presentation, which summarized poet's creativity. Following that, Khazar Suleymanli recited the poem "Yaşaya bilmirəm" (Can not live). Then Gardashkhan Azizkhanli, instructor of the Department of Languages and Literature, delivered talk about the creativity of S. Sarvan.

At the end, S.Sarvan recited the poems from his recent book – "Heykəl tənhalığı" (Sculpture Loneliness).

On April 1, 2019, the ***Qaynar.info*** and ***Kulis.az*** websites posted information on a meeting with Salam Sarvan at Khazar University. ***Kulis.az*** posted a photo from the event at its "Selected" column.

More information can be found through these links:

*https://qaynarinfo.az/az/gunesin-zirvelerde-unudub-atdii-qar-kimi-tenha-qalsam-da-foto/*

*http://kulis.az/news/24203*



# ABŞERON MİLLİ PARKINA EKSKURSİYA

# EXCURSION TO ABSHERON NATIONAL PARK ORGANIZED

Martin 31-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin təşkilatçılığı ilə çöl işi fənnindən Abşeron Milli Parkına ekskursiya təşkil olundu. Milli Park Abşeron yarımadasının cənub-şərq qurtaracağında – Şah dili ərazisində yerləşir. Çöl tədqiqatı zamanı tələbələr əvvəlcə Abşeron Milli Parkının "Şah dili" marşrutu (8 km) ilə hərəkət etdilər.

Burada dəniz sahili, su-bataqlıq ərazisi, yarımsəhra landşaftı, yovşan, ot sarmaşığı, yabanı kök, adi qamış, iti cığ və s. bitki növləri, su bataqlıq quşları (qaşqaldaq, bizquyruq, qarabatdaq, ördəkkimilər və s.), Xəzər tısbağası, su ilanı və s. heyvanlar, "Qırmızı kitab"a daxil olan Xəzər suitisi, ceyran, adi soltanquş, ağgöz qaraördək, adi flaminqo, kürən vağ, qıvrımlələk qutan və s. növlər haqqında ətraflı praktiki biliklər aldılar.

On March 31, with the arrangement of Khazar University's Department of Geography and Environmental Studies, an excursion was organized to Absheron National Park, within the program of the outside activities course. The National Park is situated in the south-eastern end of the Absheron peninsula – in the area of Shah.

At the time of the field study, the students first took the route to the Absheron National Park "Shah" (8 km) route. Students got acquainted with the sea coast, wetlands, semi-desert landscapes and such plants as wormwood, ivy, wild carrot, common rush, whimper etc. and gained practical knowledge about water bird species (coot, pintail, gannet, waterfowl family etc.), Caspian tortoise, eel and other animals as well as Caspian seal, which is included into the "Red Book", gazelle, common swamphen, ferruginous hen, common flamingo, purple heron, dalmatian pelican and others.



## HAMLET İSAXANLI: "KLASSİKLƏRİ İNKAR CILIZLIQDIR"

*2019-cu il aprelin 1-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı **Cebhe.info** xəbər saytına qısa müsahibə vermişdir. Müsahibəni təqdim edirik.*

"Klassikləri inkar etmək cılızlıqdır, Sabir və digərləri oturub 100 il əvvəl bugünkü günümü yazmalı idilər?"

Bu sözləri *cebhe.info*-ya açıqlamasında Xəzər Universitetinin təsisçisi, şair, tercüməçi, publisist, dilçi və ədəbiyyatşünas Hamlet İsaxanlı deyib.

O bildirib ki, zaman, dövr keçsə də, klassiklər daim yaşayır:

"Bu gün də onların adlarını çəkir, əsərlərini oxuyur və əzbərləyirik. Nə üçün? Çünki onların dedikləri qəti surətdə keçici deyil, dərindir və yüksək sənətkarlıq nümunəsidir. Nizami və Sabir kimi nəhənglər, Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı və digər müxtəlif dövrlərdən olan klassiklər Azərbaycan xalqının yetirdiyi ən böyük şəxsiyyətlər cərgəsindədirlər".

H.İsaxanlı qeyd edib ki, klassikləri tənqid edənlər zaman fərqini unudurlar:

"Əsrlər əvvəl yazan insanları tənqid edirlər ki, sən filan sözü belə demisən, məsələn, niyə adamlara lağ etmisən? Hansı ki, o vaxtlar insanlar cəhalətdən uşaqlarını məktəbə vermək istəmirdilər, onda Sabir nə etməli idi? O həmin şəxslərə müəyyən qədər lağ etməli idi ki, insanlar düşünsünlər.

Nə üçün "Molla Nəsrəddin" jurnalını bütün Şərq oxuyurdu? Bu dəqiqə Azərbaycanda elə bir qəzet, elə bir jurnal yoxdur ki, Şərq ölkələrində məşhur olsun. Ancaq o vaxtlar "Molla Nəsrəddin"i, o cümlədən Cəlil Məmmədquluzadənin, Mirzə Ələkbər Sabirin felyetonlarını və satirik-yumoristik şeirlərini Hindistanda, Balkanlarda, Türkiyədə, Rusiyada, İranda, hər yerdə əllə axtarırdılar.

Bilirsiniz, klassikləri tənqid etmək üçün müəyyən bir səviyyə olmalıdır. Ya böyük bir elm adamı, ya nəhəng sənət adamı, ya da şair, yazıçı, yəni ölkədə çox-çox seçilmiş adam olmalısan ki, ehtiyatla klassiklər barədə danışasan. Əlbəttə ki, onlara münasibət bildirmək olar, çünki onlar büt deyil. Ancaq həmin şəxslərin öz dövrlərində yazdıqlarını anlamadan tənqid etmək, onları aşağılamaq düzgün deyil".

**Hicranə İsmayılova**

***https://cebhe.info/ldquoklassikleri-inkar-cilizliqdirrdquo---hamlet-isaxanli-140081***

## PROFESSOR HAMLET ISAKANLI RESPONDED TO THE CRITICS OF CLASSICS

On April 1, 2019, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors, gave an explication to Cebhe.info news site. H. Isakhanli expressed his sentiments to the critics of the classics.

More information can be found on this link:

***https://cebhe.info/ldquoklassikleri-inkar-cilizliqdirrdquo---hamlet-isaxanli-140081***

# ВЫПУСКНИК УНИВЕРСИТЕТА ХАЗАР НАЗНАЧЕН ЧЛЕНОМ ПРАВЛЕНИЯ БАНКА ВТБ



*Наблюдательный совет ВТБ (Азербайджан) утвердил новый состав правления банка*

Наблюдательный совет ВТБ (Азербайджан) назначил директора департамента корпоративного бизнеса Ясина Джалилова новым членом правления банка.

Ясин Джалилов окончил Университет Хазар по специальности «международные экономические связи» и Бакинский институт социального управления и политологии. Имеет степень магистра Азербайджанской государственной нефтяной академии.Также получил степень МВА в высшем учебном заведении Великобритании "WarwickBusiness-School". В банковской сфере работает с 1996 года, занимал руководящие должности в Международном Банке Азербайджана. С 2018 года возглавляет департамент развития корпоративного бизнеса банка ВТБ (Азербайджан).

В качестве члена правления Ясин Джалилов будет курировать направление корпоративного бизнеса: работу с клиентами сегмента МСБ, разработку продуктов, а также ана-

*http://abc.az/ru/news/25236*

# XƏZƏR UNİVERSİTETİNİN MƏZUNU VTB İDARƏ HEYƏTİNİN ÜZVÜ TƏYİN EDİLDİ

VTB (Azərbaycan) Müşahidə Şurası bankın Korporativ biznes departamentinin direktoru, Xəzər Universitetinin beynəlxalq iqtisadi əlaqələr ixtisasının məzunu Yasin Cəlilovu bankın idarə heyətinin üzvü təyin etmişdir.

Bu haqda daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:
*http://abc.az/ru/news/25236*

# KHAZAR UNIVERSITY GRADUATE APPOINTED AS MEMBER OF THE BOARD OF DIRECTORS OF VTB

Supervisory Board of VTB (Azerbaijan) has appointed Yasin Jalilov, Director of Corporate Business Department of Bank, the graduate of Khazar University, majoring in International Economic Relations, a member of the Bank's Board of Directors.

More information can be found on this link:
*http://abc.az/ru/news/25236*



# KHAZAR UNIVERSITY TEACHER SIGNED MEMORANDUM ON ESTABLISHMENT OF NEW INSTITUTION

*Gulnara Khalilova Nautak, teacher at Khazar University, Head of the National Clothes Center, Designer, PhD in Art Studies, has signed the Memorandum on the establishment of the International Association of National Clothes Designers.*

Famous Azerbaijani designer Gulnara Khalilova has signed a memorandum on the creation of the Nautak International Association of Designers of National Costumes.

Fashion designers of Azerbaijan, Uzbekistan, Kazakhstan, Kyrgyzstan, Tajikistan, Russia, Georgia, Italy and other countries took part in the signing of the memorandum.Azerbaijan was represented by the head of the Center of National Costumes, Ph.D. in Art History Gulnara Khalilova.In the framework of the memorandum, international festivals of national costumes will be held in the participating countries, numerous fashion projects will be implemented.Gulnara Khalilova became the national director of the project, Trend Life reported.The head of the association is Venera Abudrazokova (Uzbekistan).Earlier, Azerbaijani fashion designer showcased her stunning collection dedicated to Novruz spring festival at the 2nd International Festival of National Clothes.

The fashion event was organized by the State Committee for Tourism Development of the Republic of Uzbekistan.Gulnara Khalilova was awarded an honorary diploma at the festival.

The festival included master classes for beginning designers, performances by folklore ensembles and performers. Gulnara Khalilova, the head of the Center of National Costumes, is a frequent guest of international fashion weeks. She is the two-times winner at Eurasian International Fashion Festival "Silk Road" held in China.

Her works are also very popular among Turkish public figures, representatives of culture and art such as Ajda Pekkan, Emrah Erdogan, Beyazit Ozturk, Soner Sarikabadayi, and others. She also designed costume for Azerbaijan's 2013 Eurovision representative Farid Mammadov and created hand panel with the official mascots of the EuroGames. During the opening of Rio 2016 Paralympic Games in Rio, Champion of the European Games Ilham Zakiyev was in national dress, created by the designer which was a novelty in the history of the Olympic movement. Khalilova is the author of a number of books, including the history of Azerbaijan national clothing, the textbooks and catalogs for higher education institutions. In 2014-2015 she worked as a teacher at the State Academy of Fine Arts. Since 2017, she is teaching at Khazar University.

Laman Ismayilova

*https://www.azernews.az/culture/148078.html*

# XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİ YENİ QURUMUN YARADILMASI İLƏ BAĞLI MEMORANDUMU İMZALADI

Aprelin 1-də Xəzər Universitetinin müəllimi, Milli Geyimlər Mərkəzinin rəhbəri, dizayner, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Xəlilova Nautak Beynəlxalq Milli Geyimlər Dizaynerləri Assosiasiyasının yaradılması haqqında memorandumu imzalayıb.

Daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

*https://www.azernews.az/culture/148078.html*

# "Xəzər" və dünya"

"Əcnəbi tələbələrlə müsahibələr" silsiləsindən

## KRİSTİNA REÇKUNOVA: "XƏZƏR UNİVERSİTETİNİN VERDİYİ TƏHSİL ÖZÜMƏ İNAMIMI ARTIRIR"

# "Khazar and World"

From the series "Interviews with Foreign Students"

## "STUDYING AT KHAZAR UNIVERSITY GIVES ME CONFIDENCE" CHRISTINA RECHKUNOVA



"Xəzər Universitetində təhsil almaq özümə inamımı artırır," –Xəzər Universitetinin Rusiyadan olan magistr tələbəsi Kristina Reçkunova deyir. Kristina Xəzər Universitetinin beynəlxalq təqaüd proqramı çərçivəsində maliyyə menecmenti üzrə təhsil alır.

Kristina bildirir ki, magistr təhsili almaq üçün düzgün universiteti seçmək onun üçün elə də asan bir proses olmayıb: "Qərar vermək xeyli vaxtımı aldı. Mənim üçün çox vacibdir ki, təhsil aldığım universitet yüksək təhsil versin və şəxsi inkişaf üçün münbit mühit yaratsın. Mən həm də Azərbaycanı kəşf etmək istəyirdim, çünki atam bu ölkədə doğulub. Buna görə də, mən Azərbaycanda təhsil alan tələbələrdən məsləhət almağa, onlayn forumlarda tələbələrin şəxsi təcrübəsini öyrənməyə başladım. Ehtiyatlı araşdırmalardan sonra nəhayət, Xəzər Universitetinə müraciət etməyə qərar verdim və qərarım məni yanıltmadı.

Xəzər Universiteti gözləntilərimin də üstündə oldu. Dərslər çox canlı və interaktiv keçirilir, bütün dərs boyu biz müzakirələr aparır və fikirlərimizi rahat ifadə edirik. Mən bu yaxınlarda öndə gedən audit şirkətlərindən birində müsahibədə oldum və onlar çox təəccübləndilər ki, mən sadəcə universitetdən əldə etdiyim biliklərlə müsahibədə verilən bütün suallara cavab verdim. Həqiqətən də, öz sahəmə dair bir çox bilikləri Xəzər Universitetində əldə etmişəm və bu da mənə müsahibə zamanı inam verirdi".

Müsahibəni hazırladı: **Lamiyə Pənahova**
*Beynəlxalq Əlaqələr Ofisinin koordinatoru.*

"Studying at Khazar gives me confidence" says Christina Rechkunova, a second-year MBA student from Russia. Christina received a scholarship from Khazar University to pursue her master's in Financial Management.

Christina says that deciding on the right university to pursue her master's studies was not an easy process: "I took me a while to make up my mind. It was important that the university I select provides high quality education and opportunities for personal development. I also wanted to explore Azerbaijan – the country where my father was born. I started to seek advice from students studying in Azerbaijan and getting their feedback in various forums. I was very deliberate in selecting a university and finally made up my mind to apply to Khazar University and my choice did not frustrated me."

"Khazar exceeded my expectations. Classes here are very lively and interactive: we spend the whole lesson discussing, expressing our opinions and views. Recently, I have been interviewed by one of the leading audit companies and they were surprised that I answered all the questions asked during the interview with the knowledge I gained from the University. Indeed, I have gained a lot of knowledge about my field at Khazar University, and this gave me the confidence during the interview."

Interview prepared by **Lamiya Panahova**
*Coordinator at International Affairs office*

# HİNDİSTAN GÖRÜŞLƏRİ

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ




ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Cəvahirləl Nehru adına Hindistan Dövlət Universitetinin dəvəti ilə bu ölkədə səfərdə olmuşdur.

Azərbaycan Respublikasının Hindistandakı səfiri Əşrəf Şıxəliyevlə görüşlərdə Azərbaycan-Hindistan əlaqələrinin aktual məsələləri müzakirə edilmişdir.

Cəvahirləl Nehru adına Hindistan Dövlət Universitetinin vitse-kansleri, professor M.Caqadeş ilə görüş zamanı bu elmi-tədqiqat və ali təhsil qurumu ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu arasında qarşılıqlı əlaqələrə dair əməkdaşlıq müqaviləsi imzalanmışdır. Müqavilədə Cəvahirləl Nehru adına Hindistan Dövlət Universitetində Azərbaycanşünaslıq, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda isə Hindistanşünaslıq mərkəzlərinin yaradılması, Cəvahirləl Nehru Universitetində yeni açılmış "Türk dili və ədəbiyyatı" ixtisasında "Azərbaycan dili və ədəbiyyatı" fənninin proqrama daxil edilməsi və tədrisi, birgə elmi konfransların keçirilməsi, elmi jurnalların mübadiləsi və sair məsələlər nəzərdə tutulur. Cəvahirləl Nehru Universitetinin rektoru, professor Çintamani Mahapata və Beynəlxalq Münasibətlər İnstitutunun Baş direktoru, professor Çita Bamezai ilə keçirilmiş görüşlərdə isə ikitərəfli elmi əməkdaşlığın həyata keçirilməsi haqqında müzakirələr aparılmışdır.

Akademik İsa Həbibbəyli Cəvahirləl Nehru Universitetinin Beynəlxalq Əlaqələr İnstitutunda "Azərbaycan-Hindistan ədəbi-mədəni əlaqələri" mövzusunda mühazirə oxumuşdur. O, eyni zamanda "Türk dili və ədəbiyyatı" ixtisasının professor-müəllim heyəti və tələbə kollektivi qarşısında "Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri və əsas yaradıcıları" mövzusunda dərs keçmişdir. Cəvahirləl Nehru Universitetində təşkil olunmuş Novruz konfransında da akademik İsa Həbibbəylinin çıxışı maraqla qarşılanmışdır.

Cəvahirləl Nehru Universitetinin vitse-kansleri, professor M. Caqadeş Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna dəvət olunmuşdur.

Hindistan Mədəniyyət Fondunun əməkdaşı Doqra və Cəvahirləl Nehru Universitetinin "Türk dili və ədəbiyyatı" kafedrasının müdiri, professor Gous Mashkoor Khan səfərin təşkilində yaxından iştirak etmişlər.

Səfər çərçivəsində akademik İsa Həbibbəyli görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin Hindistanda ən böyük davamçısı, hind ədəbiyyatının klassiki Əmir Xosrov Dəhləvinin məzarını və məşhur Tac Mahal məbədgahı kompleksini ziyarət etmişdir.









# İNŞAAT MÜHƏNDİSLİYİ İXTİSASININ TƏLƏBƏLƏRİ SUMQAYIT TEXNOLOGİYALAR PARKINDA

# STUDENTS MAJORING IN CIVIL ENGINEERING HAVE INTERNED AT SUMGAIT TECHNOLOGY PARK

Aprelin 1-də Xəzər Universitetinin inşaat mühəndisliyi ixtisasının tələbələri departamentin koordinatoru Rasim Bayramlının rəhbərliyi ilə Sumqayıt Texnologiyalar Parkında (STP) praktikada oldular. Praktika zamanı STP-də olan inşaat məmulatları, qaynaq quraşdırma, mexaniki emal, sendviç panellər, antikorreziya, qumlama və layihə işçi sənədlər üzrə metal konstruksiyaların hazırlanma texnologiyası haqqında tələbələrə məlumat verildi.

Bundan başqa, tələbələr qaynaq quraşdırma zavodunda "HOWO STP" markalı tikinti və sənayenin müxtəlif sahələrində istifadə olunan və təyinatına görə bir-birindən fərqlənən inşaat maşınları ilə, habelə, yük avtomobillərinin şassiləri üzərinə quraşdırılan özüboşaldan və bortlu kuzovlar, səbətlər, kran maşınlar, sendviç paneldən konteynerlər istehsal olunan sexlərdə oldular.

Görüş Xəzər Universitetinin metal konstruksiya ixtisasının müəllimləri və zavodun baş mütəxəssislərinin iştirakı ilə tələbələr üçün çox səmərəli keçdi.

On April 1, the students of Khazar University majoring in Civil Engineering undertook an internship at Sumgait Technology Park (STP) under the guidance of Department Coordinator Rasim Bayramli. During the internship at STP, students were familiarized with the construction materials, welding installations, mechanical processing, sandwich panels, anticorrosion, sanding, development technologies for the manufacturing of metal structures in accordance of project's working documents.

Moreover, at the erection plant, students get acquainted with the construction vehicles of the "HOWO STP" brand, which are used in various construction and industrial areas, diversified by their designation, as well as dump trucks and board beds installed on the vehicle chassis, baskets, cranes and containers made from sandwich panels.

The meeting was very productive for the students with the participation of Khazar University's metal construction faculty and the chief specialist of the plant.















## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞININ MÜSAHİBƏSİ "TEXNOXƏBƏR"DƏ YAYIMLANDI

## INTERVIEW WITH KHAZAR UNIVERSITY EMPLOYEE HAS BEEN RELEASED IN "TEXNOXƏBƏR"

2019-cu il aprelin 2-də Xəzər Universiteti İnformasiya texnologiyaları departamentinin müdiri Fərid Musayevin Azərbaycan Dövlət Televiziyasının "Texnoxəbər" verilişinə verdiyi müsahibə yayımlanmışdır.

Sözü gedən müsahibədə dünyada geniş yayılmış "Bulud" texnologiyaları haqqında ətraflı məlumat verilmişdir.

F.Musayevin müsahibəsini bu link vasitəsilə izləmək olar: *https://youtu.be/Vyb5rdXBjJ8*

On April 2, 2019, interview with Farid Musayev, IT Department Director at Khazar University, which he gave to the "Texnoxəbər" program broadcast on Azerbaijan State Television, has been released.

During this interview, detailed information was given about the world's widely used "Cloud" technologies.

F. Musayev's interview can be viewed through this link: *https://youtu.be/Vyb5rdXBjJ8*

## FİZİKA VƏ ELEKTRONİKA DEPARTAMENTİNİN MÜƏLLİMİNİN MƏQALƏSİ ÇAP OLUNUB

## ARTICLE BY THE TEACHER OF THE DEPARTMENT OF PHYSICS AND ELECTRONICS PUBLISHED

Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakültəsi Fizika və elektronika departamentinin müəllimi, fizika üzrə fəlsəfə doktoru Fəridə Tatardarın "Boşluq vasitəsilə maqnetizasiya və qrafen monolayerin bərpası" (*"Vacancy mediated magnetization and healing of a graphene monolayer"*) adlı məqaləsi ABŞ-da nəşr olunan, "Web of Science" bazasına daxil olan və Amerika Fizika Cəmiyyətinin (*American Physical Society*) 3,8 impakt faktorlu "Physical Review B" jurnalının 2019-cu il 99-cu nömrəsində yayımlanmışdır. Məqalədə qrafen qatının DFT üsulu ilə tədqiqinə aid məsələlər öz əksini tapmışdır.

Məqaləni bu linklər vasitəsilə oxumaq olar:
*https://arxiv.org/abs/1903.04180*
*https://arxiv.org/pdf/1903.04180.pdf*

An Article of Farida Tatardar, PhD, Instructor of the Department of Physics and Electronics at the Faculty of Natural Sciences and Engineering at Khazar University, entitled *"Vacancy mediated magnetization and healing of a graphene monolayer"* that was published in the Physical Review B Journal Vol. 99 (2019). This Journal is published in the U.S. included to the "Web of Science" database of the American Physics Society with Impact Factor 3.8. The article deals with the study of the graphene layer by DFT method.

The article can be read through these links:
*https://arxiv.org/abs/1903.04180*
*https://arxiv.org/pdf/1903.04180.pdf*



# IPB NÜMAYƏNDƏLƏRİ ERASMUS+ PROQRAMI ÇƏRÇİVƏSİNDƏ XƏZƏR UNİVERSİTETİNDƏ OLDULAR

# REPRESENTATIVES OF IPB VISIT KHAZAR UNIVERSITY WITHIN ERASMUS + PROGRAMME

Aprelin 1-2-də Portuqaliyanın Braqansa Politexnik İnstitutunun (IPB) nümayəndələri Erasmus+ proqramı təlim mobilliyi çərçivəsində Xəzər Universitetində oldular.

Səfərin məqsədi mövcud əməkdaşlığın analizi, gələcək layihələrin müzakirəsi, eləcə də, üstün təcrübələrin təşviqi idi. IPB nümayəndə heyəti Kimya və biologiya texnologiyaları departamentinin professoru Dr. Helder Teixeira Gomes və Beynəlxalq əlaqələr üzrə mütəxəssis Joana Aguiardan ibarət idi.

Səfərin proqramına rektor və prorektorlarla görüş, kampus gəzintisi, müvafiq departamentlərlə əməkdaşlığın müzakirəsi və beynəlxalq əlaqələr şöbəsi ilə görüş daxil idi.

Xəzər Universiteti Braqansa Politexnik İnstitutu ilə 2017-ci ildə Anlaşma Memorandumu və İkili Diplom proqramları haqqında Anlaşma imzalayaraq, əməkdaşlığa başlamışdır.

On April 1 and 2, representatives of the Polytechnic Institute of Bragança (IPB) in Portugal were at Khazar University on a training mobility within the Erasmus + Programme.

The goal of the visit was to analyze existing cooperation, discuss future projects, share best practices and experience. Representatives of the IPB included Dr. Hélder Teixeira Gomes, Professor at Chemical and Biological Technology Department and Ms. Joana Aguiar, International Relations Officer.

Program of the visit included meeting with the Rector and Vice-Rectors, campus tour, discussions of collaboration with relevant departments and professors as well as a visit to the International Affairs office.

Khazar University has been collaborating with IPB since 2017 when a Memorandum of Understanding and an Agreement on Double Degree programs were signed between the two universities.







# BRAGANSA POLİTEXNİK İNSTİTUTU İKİLİ DİPLOM PROQRAMLARI BARƏDƏ TƏQDİMAT KEÇİRDİ

# POLYTECHNIC INSTITUTE OF BRAGANÇA PRESENTS DOUBLE-DEGREE PROGRAM TO KHAZAR STUDENTS

Aprelin 2-də Bragansa Politexnik İnstitutunun (IPB) Beynəlxalq əlaqələr üzrə mütəxəssisi Joana Aguiar Xəzər Universitetinin tələbələri üçün açıq olan ikili diplom proqramının təqdimatını keçirdi. Təqdimat müddətində Joana Aguiar universitet, onun resursları və maddi-texniki bazası, beynəlxalq tələbələrə göstərilən dəstək və digər əhəmiyyətli detallar haqqında məlumat verdi.

Hazırda Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsi (bakalavr proqramları: kompüter mühəndisliyi, kompüter elmləri və kimya mühəndisliyi; magistr proqramları: mühəndislik, informatika) və İqtisadiyyat və menecment fakültəsi (bakalavr proqramı: menecment, magistr proqramı: MBA Menecment) tələbələri üçün ikili diplom proqramları təklif edir.

On April 2, Ms. Joana Aguiar, International Relations Officer at Polytechnic Institute of Bragança in Portugal delivered a presentation on the double-degree program available for Khazar University students. During the presentation Ms. Aguiar provided detailed information about the university, its resources and facilities, support provided for international students, and other important details.

Khazar University offers double-degree programs for students of the School of Science and Engineering (bachelor programs: Computer Engineering, Computer Science and Chemical Engineering; master programs: Engineering, Informatics) and School of Economics and Management (bachelor programs: Management; master programs: MBA in Management).








# ELM GÜNÜNƏ HƏSR OLUNAN "GƏNC QADINLAR ELMDƏ" MÜSABİQƏSİNİN NƏTİCƏLƏRİ AÇIQLANDI

# RESULTS OF THE CONTEST "YOUNG WOMEN IN SCIENCE" DEDICATED TO SCIENCE DAY ANNOUNCED

Aprelin 3-də Azərbaycan Milli Elmlər Akademiyasının gənc qadın alimləri üçün elan olunan "Gənc qadınlar elmdə" müsabiqəsinin nəticələri açıqlandı. AMEA-nın prezidenti akademik Akif Əlizadənin 5 fevral 2019-cu il tarixli Sərəncamına əsasən təşkil edilən müsabiqənin məqsədi akademiyada çalışan gənc qadınların elmin müxtəlif sahələrində apardıqları tədqiqatlarını, əldə etdikləri nailiyyətlərini, aktual və müasir elmi problemlərin Azərbaycan üçün prioritet olan istiqamətlərində elmi fəaliyyətini stimullaşdırmaq və onların elmin inkişafında rolunu daha da artırmaqdır.

Müsabiqədə iştirak üçün 69 gənc qadının namizədliyi irəli sürülmüşdü. Xəzər Universiteti Kimya və kimya mühendisliyi departamentinin müəllimi, kimya üzrə fəlsəfə doktoru Sevinc Osmanova bu müsabiqədə II yerə layiq görüldü.

Qaliblərə sertifikat və pul mükafatı təqdim edildi.

On April 3, the results of the contest "Young Women in Science" initiated for young female scientists of the Azerbaijan National Academy of Sciences (ANAS) were announced. The purpose of the competition, organized in accordance with the Order of the academician Akif Alizadeh, the President of ANAS on February 5, 2019, is to encourage young women working in academia to pursue their research in various fields of science, their achievements and to stimulate their scientific activities in the priority areas of important and modern scientific issues in Azerbaijan.

69 young women were nominated for the contest. Among them, Sevinj Osmanova, PhD in Chemistry, instructor of the Khazar University Department of Chemistry and Chemical Engineering, was awarded the 2nd place in this competition.

The winners were given certificates and cash prizes.



## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI NİZAMİ LAYİHƏSİNİN YEKUN GÖRÜŞÜNDƏ İŞTİRAK ETDİLƏR

## KHAZAR UNIVERSITY STAFF MEMBERS PARTICIPATE IN FINAL MEETING OF NIZAMI PROJECT

Xəzər Universitetinin əməkdaşları – İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, Kitabxana-İnformasiya Mərkəzinin direktoru Tatyana Zaytseva və Siyasi elm və fəlsəfə departamentinin müdiri Dr. Elmar Mustafayev aprelin 1-dən 4-dək Montpelier Universitetində baş tutan Erasmus+ NİZAMİ layihəsinin yekun iclasında iştirak etdilər. Layihənin görüşü tərəfdaş universitetlərin iş planlarına daxil olan tədbirlərin yekun hesabatına həsr edilmişdi.

NİZAMİ layihəsinin yekun görüşündə Azərbaycandan olan tərəfdaş qurumlar – Azərbaycan Milli Elmlər Akademiyası, Xəzər Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Naxçıvan Universiteti və Avropa Birliyindən koordinator universitetlər – Montpelier Universiteti, Barselona Universiteti və Lund Universiteti iştirak edirdilər.

Görüşün üçüncü günündə Dr. Elmar Mustafayev NİZAMİ layihəsinin iş planında yer alan "Doktorluq təhsilinin strukturlaşdırılması"na dair təqdimatla çıxış etdi. Təqdimatda iştirakçılara Xəzər Universitetinin NİZAMİ layihəsi çərçivəsində yaradılan Doktorluq Məktəbi modeli haqqında məlumat verdi.

On April 1-4, Khazar University staff members – Dr. Jeyhun Mammadov, Dean of the School of Economics and Management; Dr. Tatyana Zayseva, Director of the Library and Information Center; and Dr. Elmar Mustafayev, Head of the Political Science and Philosophy Department – participated in the final meeting of Erasmus+ NIZAMI Project at Montpelier University, France. The project meeting was devoted to the final reports.

The final meeting of NIZAMI Project was attended by partner universities and institutions from Azerbaijan – Azerbaijan National Academy of Science, Khazar University, Baku Engineering University, UNEC, Azerbaijan University of Languages, Azerbaijan University of Architecture and Construction, and Nakhichevan University – and programme universities from EU – Montpelier University, Barcelona University, and Lund University.

On the third day of the meeting, Dr. Elmar Mustafayev delivered a presentation on Work Package 2 of NIZAMI Project, *Structuring Doctoral Education*. The presentation briefed the participants about the Doctoral School Model of Khazar University established within the NIZAMI Project.



# GƏNCƏ ŞƏHƏRİNDƏ PETRA SEMİNARI
# PETRA MEETING IN GANJA

Aprelin 1-5-də Gəncə Dövlət Universitetində PETRA layihəsi çərçivəsində növbəti təlim proqramı keçirildi. Xəzər Universitetinin dörd nümayəndəsi - İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva, Kitabxana informasiya mərkəzinin direktor müavini Aytac Misgərli, Psixologiya departamentinin müəllimi Nilufər Əlizadə və doktorantura tələbəsi Abdulla Rahman Balogun Məhəmməd-Şittu təlim proqramında iştirak etdilər.

Tədris proqramı təlim və öyrənmə prosesində tədqiqat bacarığının inkişafı və İT-nin təkmilləşdirilməsinə həsr olunmuşdu. Proqramın ilk günündə Azərbaycandan olan tərəfdaş universitetlər hər bir universitetdə layihənin icrasının nəticələrini təqdim etdilər. Tədrisin ikinci günündə isə Debrecen Universiteti tədris və tədris mərkəzlərinin ən yaxşı təcrübələri üzrə seminar keçirdi.

Proqramın üçüncü günü layihənin idarə olunması və koordinasiyasına həsr olundu. Bütün məsul tərəfdaşlar layihənin həyata keçirilməsi barədə hesabat təqdim etdilər. İdarə heyəti görüşün sonunda plan və fəaliyyətlər üzrə əsas qərarlar qəbul etdi..

Tədbirin dördüncü günündə Tətbiqi Elmlər Universiteti BFI Vyana nümayəndələri ilə birlikdə seminar keçirdilər. Open Access haqqında seminar Dr. Dietmar Paier və Johannes Wetzinger tərəfindən verildi. Günün ikinci yarısında Xəzər Universitetinin əməkdaşı Raziyə İsayevanın rəhbərliyi ilə universitetlərdə tədris və təlim problemləri ilə bağlı seminar keçirildi. Hər bir iştirakçı universitetin komandası, tədris və öyrənmə problemləri ilə yanaşı, layihənin hər bir universitetində yaradılan Tədris Mərkəzlərinin vasitələrindən istifadə edərək, təkliflər irəli sürdülər.

Seminarın beşinci günü MOODLE platformasına, tələbə öyrənməsini yaxşılaşdırmaq üçün necə istifadə olunduğuna həsr edildi. Seminar Jyvaskyla Universitetinin əməkdaşı Pieta Sikström tərəfindən aparıldı. O, eLearning ideyasını təqdim etdi və MOODLE platformasından necə istifadə edilməsi barədə praktiki məşğələ keçirdi. Sonra seminarda Xəzər Universiteti və Bakı Slavyan Universiteti öz elektron təlim platformalarını təqdim etdilər.

The subseqquent training programme within PETRA project organized at Ganja State University on 1-5 April. Four representatives of Khazar University participated in a training programme, namely Raziya Isayeva, Director of Development, Aytaj Misgerli, Deputy Director of Library Information Center, Nilufer Alizada, Instructor of Psychology Department/PhD Student, and Abdul-Rahman Balogun Muhammed-Shittu, PhD student.

The training programme was devoted to the Research Competence development and Enhancement of IT in Teaching and Learning Process. During the first day of the programme partner universities from Azerbaijan presented the results of the project implementation at each university. The second day of the training University of Debrecen conducted a workshop of the best practices of Teaching and Learning Centers.

The third day of the programme was devoted to the management and coordination of the project. All responsible partners presented the implementation of the project. Major decisions on plans and activities were made by the end of the management meeting.

Representatives of University of Applied Sciences, BFI Vienna conducted a workshop on the fourth day of the meeting. Workshop on Open Access was delivered by Dr. Dietmar Paier and Johannes Wetzinger. The second half of the day lead by Raziya Isayeva, Khazar University and was devoted to the workshop on Teaching and Learning challenges at universities. The team of each participant university came up with the challenges of Teaching and Learning as well as the solution they can offer using the means of Teaching and Learning Centers established at each university within the project.

The fifth day of the meeting was devoted to MOODLE platform, how to use it to improve student learning. The workshop lead by Pieta Sikström, University of Jyvaskyla. She presented the idea of eLearning and conducted practical workshop on how to use Moodle platform. Later, during the workshop, Khazar University and Baku Slavic University presented their eLearning Platforms.



# XƏZƏR UNİVERSİTETİNDƏ "HAVA-YER-DƏNİZ QARŞILIQLI ƏLAQƏLƏRİ" MÖVZUSUNDA 1-Cİ BEYNƏLXALQ KONFRANS KEÇİRİLDİ







Aprelin 4-5-də Xəzər Universitetində "Hava-Yer-Dəniz qarşılıqlı əlaqələri" adlı beynəlxalq konfrans keçirildi. Bu konfrans UNESCO, Xəzər Universiteti, İstanbul Aydın Universiteti, İstanbul Texniki Universiteti, Çin Elmlər Akademiyası və Avrasiya Universitetləri Birliyinin birgə təşkilatçılığı ilə təşkil olunmuşdu. Beynəlxalq konfransda ABŞ, Türkiyə, Rusiya, Belçika və Azərbaycandan 70-ə yaxın mütəxəssis iştirak edirdi.

Konfrans Xəzər Universitetinin rektoru vəzifəsini icra edən dosent İradə Xəlilovanın açılış sözü ilə başladı. Sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı gələn qonaqları salamladı, konfransda müzakirə olunacaq mövzuların, qurulacaq əlaqələrin vacibliyi və əhəmiyyəti haqqında danışdı.

Açılış mərasimində Coğrafiya və ətraf mühit departamentinin müdiri, konfransın həmsədri Dr. Rövşən Abbasov və İstanbul Aydın Universitetinin prorektoru, konfransın sədri Zafer Aslan da çıxış etdilər.

Konfransın ilk günündə iştirakçılar tərəfindən alternativ enerji mənbələri, ətraf mühitin çirklənməsi, atmosfer hadisələri, insanın ətraf mühitə təsiri, iqlim dəyişmələri, quraqlıq, təhlükəli təbiət hadisələri kimi mövzular ətrafında çıxışlar oldu.

Həmin gün təşkilatçılar və digər dəvət olunan tərəflər üçün təlim təşkil olundu.

*(Ardı səh.44-də)*






# 1ST INTERNATIONAL CONFERENCE ON "AIR-LAND-SEA INTERACTIONS" WAS HELD AT KHAZAR UNIVERSITY

On April 4 and 5, Khazar University hosted an International Conference entitled "Air-Land-Sea Interactions". This conference was organized jointly by UNESCO, Khazar University, Istanbul Aydin University, Istanbul Technical University, Chinese Academy of Sciences, and Eurasian Universities Union (EURAS). 70 specialists from the US, Turkey, Russia, Belgium and Azerbaijan participated in this International Conference.

The conference commenced with the opening statement of Associate Professor Irada Khalilova, Rector of Khazar University. Following that, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees welcomed the guests, spoke about the topics to be discussed and the importance of the relationships to be established.

Dr. Rovshan Abbasov, Director of Geography and Environment Department, co-chair of the conference and Professor Zafer Aslan, Vice-Rector of Istanbul University also delivered speeches at the conference.

On the first day of the conference, the participants discussed such topics as alternative energy sources, environmental pollution, atmospheric events, human impact on the environment, climate change, drought, and dangerous nature events.

On the first day of the conference training was arranged for the organizers and other invited parties.

*(To be continued page 45)*












Bu təlimdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Xəzər Universuitetinin rektoru vəzifəsini icra edən dosent İradə Xəlilova, İstanbul Aydın Universitetinin prorektoru professor Zafer Aslan, YUNESKO-nun Eremologiya üzrə bölmə müdiri, Gent Universititinin professoru Donald Gabriel, Xəzər universiteti Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Hassan Niknafs, İstanbul Texniki Universitetinin professorları Ahmet Şahin və Hüseyin Toros, Yalova Universitetinin dosenti Zəlha Altınkaya iştirak edirdilər. Görüşdə gələcək birgə fəaliyyət imkanları araşdırıldı və əsas fəaliyyət istiqamətləri müəyyən edildi. Bir çox sahələr üzrə birgə elmi layihələrin həyata keçirilməsi qərara alındı. 2-ci Beynəlxalq "Hava-Yer-Dəniz qarşılıqlı əlaqələri" konfransının İstanbulda keçirilməsi razılaşdırıldı.

Konfransın ikinci günündə iqlim dəyişmələrinin kənd təsərrüfatı bitkilərinə təsiri, su ehtiyatları, transsərhəd çirklənmə, iqlimin modelləşdirilməsi kimi mövzular ətrafında çıxışlar oldu.

Konfrans iştirakçılarının müzakirə olunan mövzulara, hava, yer, dəniz səthində qeyd edilən problemlərlə bağlı təklif etdikləri həll yolları barədə təqdimatları dinlənildi, müzakirələr aparıldı. Konfrans YUNESKO-nun Eremologiya üzrə bölmə müdiri, Gent Universitetinin professoru Donald Gabriel, Cənubi Metodist Universitetinin professoru Şlomo Veber, İstanbul Aydın Universitetinin prorektoru Zafer Aslan, Xəzər Universuitetinin rektoru vəzifəsini icra edən dosent İradə Xəlilova və Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Dr. Rövşən Abbasovun bağlanış nitqləri ilə yekunlaşdı.

Sonda konfrans iştirakçılarına hədiyyə və sertifikatlar təqdim olundu. Konfransdan sonra qonaqlar üçün kiçik səyahət təşkil olundu.















This training was attended by Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Associate Professor Irada Khalilova, Rector of Khazar University, Professor Zafer Aslan, Vice-Rector of Istanbul University, Prof. Dr. Donald Gabriel, UNESCO Chair on Eremology, Professor at the Ghent University, Dr. Hassan Niknafs, Dean of the School of Natural Sciences and Engineering, Ahmet Sahin and Huseyin Toros professors of Istanbul Technical University, Associate Professor Zelha Altinkaya, Yalova University. During the meeting the prospects of future joint activities were explored and key business trends were identified. It was decided to implement joint scientific projects in many areas. The parties also agreed to hold the 2nd International Conference on "Air-Land-Sea Interactions" in Istanbul.

On the second day of the conference, speeches were delivered soncerning such topics as the effects of climate change on agricultural crops, water resources, transboundary pollution and climate modeling.

The participants of the conference listened to presentations on the topics high on the agenda, particularly on the proposed solutions to issues on air, land and the sea surface, and afterwards relevant discussions took place. The conference was concluded by closing speeches of Prof. Dr. Donald Gabriel, UNESCO Chair on Eremology, Professor at the Ghent University, Professor Shlomo Weber from the Southern Methodist University, Professor Zafer Aslan, Vice-Rector of Istanbul University, Associate Professor Irada Khalilova, Rector of Khazar University, and Dr. Rovshan Abbasov, Director of Geography and Environment Department.

Then, participants were awarded with certificates and gifts. After the conference a small trip was organized for the guests.











# QADIN VƏ KİŞİLƏRİN DÜŞÜNCƏ VƏ PROBLEM HƏLLETMƏ TƏRZLƏRİ

Mələk Kərimova
*Xəzər Universiteti*
mkerimova@khazar.org

Qadın və kişilərin necə fikirləşdikləri, düşüncə tərzlərinin fərqli olub olmadığı hər zaman insanları düşündürüb. Belə ki, qadınlar çox zaman kişilərin onları dinləmədikləri ilə əlaqədar narazılıqlarını dilə gətirərkən, kişilər də qadınların daha çox danışdıqlarından şikayət ediblər. Kişi və qadın arasında bioloji, fizioloji fərqlərin müxtəlif elm sahələrinin tədqiqat mövzusu olmasına baxmayaraq, hələ də bu sahə ilə əlaqəli müzakirə ediləcək məsələlərin çoxluğu diqqət çəkir. Qadın və kişi bərabərliyi anlayışını dəstəkləyənlər olduğu kimi, bu fikrə qarşı çıxanlar da hər zaman olmuşdur. Qadın və kişinin davranış tərzi, münasibətləri və düşüncə şəklini anlaya bilmək üçün bəzi faktlara diqqət çəkmək əhəmiyyətli görünür. Hesab edilir ki, bu fərqləri hər iki cinsin nümayəndələrinin bilməsi onların bir-birini daha yaxşı anlaya bilmələrinə, ünsiyyətlərində yaranan çətinliklərin azalmasına səbəb olacaqdır. Aşağıda bununla əlaqəli əsas hesab edilən faktlara yer verilmişdir.

1.Qadın və kişi beyni çəki etibarı ilə fərqlidir. Kişilərin beyni qadınlarınkından 10% daha böyükdür. Kişi beyninin kütləsi 1345 qr,qadın beyni isə 1222 qramdır. Kişi beyninin həcmi 1260 sm$^3$, qadın beyninin həcmi isə 1130 sm$^3$-dur. Beyin çəkisi və həcminin fərqli olması heç də, kişilərin daha zəkalı olması mənasına gəlməməkdədir.Təbii ki, bədən və əzələ kütləsinin kişilərdə daha ağır olması beynin də daha çox funksiyaya xidmətinin artdığını göstərir.

2.Qadın beynində ağ maddə, kişi beynində boz maddə daha çoxdur. Ağ maddə informasiya mübadiləsində, boz maddə isə informasiyanın işlənilməsində daha əhəmiyyətlidir. Bu isə, qadınların informasiya mübadiləsində niyə aktiv olmaq istədiklərini göstərir

3.Qadınlarda sağ beyin daha aktiv ikən, kişilərdə sol beyin daha fəaldır. **Beyin üzərində aparılan tədqiqatlar nəticəsində sağ və sol beyin yarımkürələrinin informasiyanı fərqli şəkildə işlədiklərini ortaya qoymuşdur.** Hər hansı məlumatı öyrənərkən beynin hər iki yarımkürəsi istifadə edilsə də, adətən bir hissə digərinə görə üstünlük təşkil etməkdədir. Sol beyin yarımkürəsi nitq, kateqoriyalaşdırma, problem həlletmə kimi xüsusiyyətlərdən, sağ yarımkürə isə ətrafı bütöv və vizual qavramada həssasdır. Sağ beyin şəkilləri, yerləri və məsafələri daha yaxşı qavramada, sol beyin isə dil, hadisələrə məntiqi nəticələr çıxararaq yanaşmada ustadır. Sağ beyin yarımkürəsi musiqini, rəngləri qavrayarkən və emosiyalar zamanı aktivləşərkən, sol yarımkürə danışıq, sözlərin tələffüzü, məntiq, riyaziyyat kimi məsələlərdə aktiv olmaqdadır. Bu isə qadınların nə üçün daha romantik, həssas və emosional olduğu ilə əlaqəli fikri bir daha dəstəklə-yir. Amma bunu da qeyd etmək lazımdır ki, bu fərqliliyin kəskin sərhədlərini qoymaq da əsaslı olmazdı. Bunu daha çox qadın və kişilərin istiqa-

mətləndikləri peşə sahələrində, boş zaman fəaliyyətlərində müşahidə etmək olar.

4. Kişilərdə amigdala daha böyükdür. Amigdala isə təhlükəli vəziyyətlə üz üzə gəlindiyi zaman beynin "mübarizə et ya da qaç" prinsipini dəstəkləyir. Təhlükənin mənfi olaraq qiymətləndirilməsi zamanı aqressiv duyğuların ortaya çıxması isə kişilərdə daha çox müşahidə edilir.

5.Qadınlar təbiətləri etibarı ilə eyni anda bir çox işə fokuslana bildikləri halda, kişilər iki və üç işə daha çox diqqətlərini verə bilirlər. Bu fakt da, qadınların analıq təbiətləri ilə izah edilə bilər. Qadın təbiəti etibarı ilə övladlarını qorumaq məqsədi ilə diqqətini daha çox fəaliyyətdə cəmləməlidir. Bu da qadının eyni anda həm telefonla danışıb, həm ev işlərini idarə edə bilməsini, həm başqa fəaliyyətə yönəlməsi haqqında fikir yürütmə-mizə səbəb olur.

6.Qadınların gün ərzində istifadə etdikləri söz sayının da kişilərdən daha çox olduğu qeyd edilsə də, son dönəmlər bunun tərsini də göstərən tədqiqatlar mövcuddur.

7.Qadınlar ünsiyyətdə daha çox prosesə fokuslandıqları halda, kişilər ünsiyyətdə nəticə və problemə daha çox əhəmiyyət verirlər. Bu mənada da qadınlar üçün hər hansı hadisənin incəliklərini izah edib danışmaq əhəmiyyətli ikən, kişilər üçün fikirdəki problemin nə olduğu daha önəmlidir.

8.Qadınların vizuallığa daha çox əhəmiyyət verməsi dünyadakı moda anlayışının və kosmetika sənayesinin də nə üçün bu qədər məşhurlaşaraq yayıldığının da anlaşılmasına şərait yaradır. Müasir dövrdə müxtəlif reklam çarxlarında da qadın obrazından istifadə edilməsi məhz bu məqsədə xidmət edir. Belə ki, maşın satışı və tanıtımı ilə əlaqəli reklam çarxlarında qadın modellərin olması satış prosesini aktivləşdirir.

Beləliklə, bu siyahını uzatmaq mümkün olsa da, hesab edilir ki, qadın və kişinin müxtəlif fiziki, bioloji xüsusiyyətlərinin fərqli olması onların psixoloji-emosional sahələrdə də fərqli davranmasına yol açır. Amma bu, qadınların üstünlüyü, ya da zəifliyi anlayışından daha çox təbiət etibarı ilə fərqli olduğunu göstərir. Tam tərsi bu qadınların zərifliyinin göstəricisi hesab edilə bilər. Aydındır ki, hər iki cinsin birlikdə ünsiyyətə girib istər iş, istərsə də ailə mühitində bu fərqliliyi anlaması daha keyfiyyətli həyat tərzinə səbəb ola bilər.

## RİYAZİYYAT SAHƏSİNDƏ DAHA BİR ELMİ MƏQALƏ YÜKSƏK İMPAKT FAKTORLU JURNALDA ÇAP OLUNDU

Xəzər Universitetinin Riyaziyyat departamenti yüksək impakt faktorlu jurnallarda məqalə çapı istiqamətində fəaliyyətini davam etdirir. Son olaraq Zaur Qasımov və Aydın Şükürovun həmmüəllif olduqları daha bir məqalə (Zaur A. Kasumov, Aydin Sh. Shukurov. On frame properties of iterates of a multiplication operator, Results in Mathematics, 74:84, 2019) ***Clarivate Analytics*** (əvvəlki adı ***Thomson Reuters***) siyahısına daxil olan yüksək impakt faktorlu "***Results in Mathematics***" jurnalında çapdan çıxmışdır.

Qeyd edək ki, cari 2018/2019-cu tədris ilində Riyaziyyat departamentindən yüksək impakt faktorlu jurnallarda çap olunan məqalələrin ümumi sayı 8 oldu.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

*https://link.springer.com/epdf/10.1007/s00025-019-1009-8?author_access_token=YmiRs8w2QrtoM_nwxO2_SPe4RwlQNchNByi7wbcMAY43DZNWOSo0uWpBUes6_Z_FFGL09jvFyIVEJtCk1MQTcvs4uEnyqsCPJcu0O9YnW2jJPsf2DjwXenz5YevTf0u4hDtIgK3vFyHpzp9tmLKybQ%3D%3D*

## ANOTHER SCIENTIFIC ARTICLE IN THE FIELD OF MATHEMATICS PUBLISHED IN A HIGH IMPACT JOURNAL

The Department of Mathematics at Khazar University continues its work on publishing articles in the journals with high impact factor. Recently, another article co-authored by Zaur Gasimov and Aydin Shukurov (Zaur A. Kasumov, Aydin Sh. Shukurov. On frame properties of iterates of a multiplication operator, ***Results in Mathematics***, 74:84, 2019) was published in the "***Results in Mathematics***" journal with a high impact factor, which is included to ***Clarivate Analytics*** (formerly ***Thomson Reuters***) list of journals.

It should be noted that, in the current 2018/2019 academic year, the total number of articles, published by the Department of Mathematics in journals with high impact factor, amount to 8 articles.

The article can be read through this link:

*https://link.springer.com/epdf/10.1007/s00025-019-1009-8?author_access_token=YmiRs8w2QrtoM_nwxO2_SPe4RwlQNchNByi7wbcMAY43DZNWOSo0uWpBUes6_Z_FFGL09jvFyIVEJtCk1MQTcvs4uEnyqsCPJcu0O9YnW2jJPsf2DjwXenz5YevTf0u4hDtIgK3vFyHpzp9tmLKybQ%3D%3D*




## "MİLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİ YAŞADAN NOVRUZ ADƏTLƏRİ" ADLI YARADICILIQ MÜSABİQƏSİNƏ YEKUN VURULUB

Aprelin 1-də Naxçıvan Dövlət Universitetində "Mili-mənəvi dəyərlərimizi yaşadan Novruz adətləri" adlı foto-video, əl işləri müsabiqəsinə yekun vurulub. Müsabiqədə fərqlənən tələbələrin mükafatlandırılması mərasimində çıxış edən universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Rafiq Rəhimov qeyd edib ki, xalqımızın günümüzə qədər yaşatdığı, qoruyub gələcək nəsillərə ötürdüyü, müqəddəsləşdirdiyi Novruz bayramı özündə dünyanın yaranma və yaşam sirlərindən tutmuş gələcəyə, xoşbəxtliyə, bolluğa ümidini əks etdirir. Prorektor bayramın ölkəmiz və xalqımız üçün tarixi və mədəni əhəmiyyətindən danışaraq bildirib ki, əsrlər boyu Azərbaycan xalqı bu bayramı qeyd edib, milli adət-ənənələri öz qəlbində yaşadıb.

Qeyd edək ki, tələbələr tərəfindən çəkilən foto-videolar Naxçıvan Dövlət Universitetinin instaqram səhifəsində yerləşdirilmək üçün müsabiqəyə təqdim olunub. Ümumilikdə, müsabiqəyə 65-ə yaxın foto-video buraxılıb. Müsabiqədə Novruzun rəmzlərini, adət-ənənələrini, keçirilən mərasimləri əks etdirən materiallar yer alıb. Qaliblər universitetin instaqram səhifəsində ən çox bəyənmə alan 10 video, foto, əl işi arasından seçilib. Peşəkar münsiflərin rəyinə əsasən foto nominasiyası üzrə Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası ixtisası üzrə II kurs magistr Aynur Həsənli müsabiqənin qalibi olub. Memarlıq ixtisası üzrə I kurs tələbəsi İlahə Babayeva II, Mühasibat uçotu və audit ixtisası üzrə I kurs tələbəsi Emil Tarverdiyev III, Stomatologiya ixtisası üzrə hazırlıq kursunun tələbəsi Gür Çətin, həmin ixtisas üzrə Bilal Barış, Fransız dili ixtisası üzrə II kurs tələbəsi Nurcan Əliyeva həvəsləndirici yerə layiq görülüblər.

Video müsabiqənin qalibi isə Torpaqşünaslıq və aqrokimya ixtisası üzrə I kurs tələbəsi Sunay Abdullayeva olub. Dünya iqtisadiyyatı ixtisası üzrə I kurs tələbəsi Kamal Babazadə, Otelçilik ixtisası üzrə II kurs magistr Ülviyyə Əliyeva II, Əczaçılıq ixtisası üzrə hazırlıq kursunun tələbəsi Azad Memitanlı III, Dünya iqtisadiyyatı üzrə I kurs tələbəsi Emeka Richard, Hüquqşünaslıq ixtisası üzrə II kurs tələbəsi Murad Əlkərəmov həvəsləndirici yerə layiq görülüblər.

Əl işləri nominasiyası üzrə hazırlanan videolar içərisində Tarix müəllimliyi ixtisası üzrə V kurs tələbəsi Günel Həsənli müsabiqənin qalibi olub. Musiqi təhsili üzrə II kurs tələbəsi Lətifə Quliyeva II, Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə II kurs magistr Nuridə Məmmədova III, Turizm və otelçilik ixtisası üzrə II kurs magistr Məmləkət Gözəlova həvəsləndirici yerə layiq görülüblər.

Qaliblər Naxçıvan Dövlət Universitetinin diplom və pul mükafatı ilə təltif olunublar.

Sonda tələbələrin müsabiqə ilə bağlı təklifləri dinlənilib.



# İNDONEZİYA SƏFİRİ PROFESSOR HÜSNAN BƏY FANANİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ OLUB

İndoneziya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri professor Hüsnan Bəy Fanani Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində aprelin 8-də NDU-da olub. Universitetin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin qarşısında qonaqları salamlayan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov onları ali təhsil ocağında görməkdən məmnunluğunu bildirib. Rektor rəhbərlik etdiyi ali təhsil ocağının strukturu, fakültələri, tədris olunan ixtisaslar və beynəlxalq əlaqələri haqqında geniş məlumat verib.

Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində keçirilən tədbiri giriş sözü ilə açan rektor universitetdə hər bir fakültə üçün ayrıca tədris korpuslarının olduğunu diqqətə çatdırıb, ali təhsil ocağının beynəlxalq əlaqələrinin sürətlə genişləndiyini bildirib. Universitetdə hal-hazırda 500-ə yaxın xarici tələbənin təhsil aldığı vurğulanıb. Qeyd edilib ki, universitet müxtəlif ölkələrin ali təhsil ocaqları ilə tələbə və müəllim mübadiləsini həyata keçirir.

Göstərilən xoş münasibətə görə minnətdarlıq edən - diplomat görüşün təşkil edilməsinə görə təşəkkür edib və universitetin kollektivinə uğurlar arzulayıb. Hüsnan Bəy Fanani bildirib ki, artıq 3 ildir ki, Azərbaycanda səfir kimi fəaliyyət göstərir. Görüşdə öz ölkəsi haqqında təqdimatla çıxış edən diplomat ölkəsinin tarixi, coğrafi mövqeyi, mədəniyyəti, ictimai-siyasi və iqtisadi vəziyyəti, ordusu, İndoneziya-Azərbaycan əlaqələri barədə ətraflı məlumat verib. Bildirilib ki, Cənub-Şərqi Asiyada yerləşən ölkə əhalisinin sayına görə dünyada dördüncü yerdə dayanır. Dövlət dili indoneziya dili olan ölkənin təxminən 88 faizi İslam dininə etiqad edir. Azərbaycanın Odlar Yurdu, İndoneziyanın isə Odlar halqası olduğu diqqətə çatdırılıb. Azərbaycan xalqının zəngin tarixi keçmişə, çoxəsrlik mədəniyyətə malik olduğu çıxışda bildirilib. Diplomat vurğulayıb ki, İndoneziya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı və ədalətli mövqeyini, ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir.

Səfirin çıxışını ölkəmizə hörmət və sevgi ruhunda qurması, İncəsənət fakültəsində davam edən görüşdə pianoda M.Maqomayevin "Azərbaycan" mahnısını universitetin kamera orkestrinin müşayiəti ilə birgə ifa etməsi iştirakçılar tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.

**Səadət Əliyeva,**
***NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri***




# PETRONAS-IN NÜMAYƏNDƏSİ TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜ

# PETRONAS REPRESENTATIVE MET WITH STUDENTS

Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakültəsinin kimya mühəndisliyi və neft mühəndisliyi ixtisaslarında təhsil alan tələbələri üçün PETRONAS şirkətinin Azərbaycan nümayəndəliyinin təqdimatı keçirildi. Təqdimat PETRONAS şirkətinin kimya mühəndisliyi, neft mühəndisliyi ixtisasları üzrə təhsil alan tələbələrə təhsillərini Malayziyanın PETRONAS Texnologiya Universitetində (UTP) davam etdirmək üçün elan etdiyi tam təqaüd proqramına həsr edilmişdi. Şirkətin nümayəndəsi Aysel Allahverdiyeva şirkət haqqında məlumat verərək bildirdi ki, PETRONAS dünya neft-qaz şirkəti yarandığı andan dünyanın 35 ölkəsində biznes maraqları ilə inteqrasiya olunmuş Malayziyanın beynəlxalq neft-qaz şirkətidir. Şirkət neft-qaz sektorunda geniş sahəli fəaliyyəti ilə fərqlənir. 1975-ci ildən etibarən, PETRONAS 36.000-dən çox layiqli və bacarıqlı tələbəyə təhsil potensialını yüksək səviyyədə həyata keçirmək üçün təqaüd təklif etmişdir.

Təqdimatın sonunda şirkət nümyandələri tərəfindən tələbələrin sualları cavablandırıldı.

On March 14, the presentation of the PETRONAS Office in Azerbaijan was held for students studying chemistry and oil engineering within the Faculty of Natural Sciences and Engineering at Khazar University. The presentation was dedicated to the full scholarship program offered by PETRONAS to continue further education in PETRONAS Technology University in (UTP) Malaysia, open for students majoring in chemistry engineering and oil engineering. First of all, Aysel Allahverdiyeva, representative of the company, provided information on the company and emphasized that PETRONAS is the Malaysian International Oil and Gas Company, which has been integrated into business interests in 35 countries since its establishment. The company distinguishes with its extensive field of activity in the oil and gas sector. Since 1975, PETRONAS has offered a scholarship to more than 36,000 worthy and capable students to fulfill their educational potential at a high level.

At the end of the presentation the questions of the students were answered by the company's representatives.




# TƏLƏBƏLƏR QALA KƏNDİ İLƏ BAĞLI TƏQDİMATLAR HAZIRLADILAR

# STUDENTS PREPARED PRESENTATIONS ABOUT QALA VILLAGE

Xəzər Universitetinin Tarix və arxeologiya departamentində tələbələrin Azərbaycanın tarix və mədəniyyət abidələri ilə tanış edilməsinə xüsusi diqqət yetirilir. Departamentin müəllimi t.ü.f.d. Səbuhi Əhmədovun Təbiət elmləri və mühəndislik fakültəsinin bir qrup tələbəsi ilə apardığı dərslərdə Azərbaycanın qədim yaşayış məskənlərindən olan Abşeronun Qala kəndi haqqında məlumat verilmişdir. Tələbələr Qalanın tarixi və abidələrinin ən vacib səhifələri ilə təqdimatlar hazırlanmışdılar. Belə ki, kənddə olmuş tələbələr Qalanın qədim və orta əsrlər dövrü tarixi, həmçinin, burada fəaliyyət göstərən Qala tarix-etnoqrafiya muzeyi haqqında müxtəlif mövzularda çıxışlar etdilər.

Təqdimatları Təbiət elmləri və mühəndislik fakültəsinin "C" qrupunun tələbləri Nuranə Əhmədova, Nisə Əmirova, Aygün Səfərova, Nailə Nəsibova və "D" qrupunun tələbələri Aidə Şahnəzərli, Ülviyə Rəcəbalıyeva, Elnurə Fətiyeva, İlkanə İbrahimbəyli, Fidan Axşinaz, Zöhrə Mirizadə, Elnurə Eldarova, Kəmalə Orucova, Nigar Əliyeva, Şəbnəm Mehdiyeva, Səadət Əmirzadə, İmaməli İbrahimov, Azər Hacıyev, Naid Cəbrayılov hazırlamışdılar.

The Department of History and Archeology of Khazar University pays special attention to acquainting students with Azerbaijan's historical and cultural monuments. During one of the lessons of Dr. Sabuhi Akhmedov, Instructor of the Department, with a group of students from the Faculty of Natural Sciences and Engineering, information about Qala village of Absheron, one of the ancient settlements of Azerbaijan was provided. Students prepared presentations about the most important pages of the history and monuments of the tower. Thus, students who visited the village made reports on Qala's ancient and medieval history, as well as about the Qala History and Ethnography Museum, which operates here.

Presentations were prepared by the students of the Faculty of Natural Sciences and Engineering - Nurana Ahmadova, Nisa Amirova, Aygun Safarova, Naila Nasibova from the group "C" and Aida Shahnazarli, Ulviya Rajabalieva, Elnura Fataliyeva, Ilkana Ibrahimbeyli, Fidan Akhshinaz, Zohra Mirizade, Elnura Eldarova, Kamala Orujova, Nigar Aliyeva, Shabnam Mehdiyeva, Saadat Amirzade, Imamali Ibrahimov, Azer Hajiyev and Naid Jabrailov from the group "D".





## "MÜXTƏLİFLİK İQTİSADİYYATININ SƏRHƏDLƏRİ: MÜXTƏLİFLİK YAXŞIDIR, YOXSA PİS" MÖVZUSUNDA MƏRUZƏ OXUNDU

## LECTURE DELIVERED ON "FRONTIERS OF ECONOMICS OF DIVERSITY: IS DIVERSITY GOOD OR BAD"

Aprelin 5-də Xəzər Universitetində Yeni İqtisad Məktəbinin rektoru professor Shlomo Weber "Müxtəliflik iqtisadiyyatının sərhədləri: müxtəliflik yaxşıdır, yoxsa pis" mövzusunda məruzə ilə çıxış etdi. Mühazirəni universitetin İqtisadiyyat və menecment fakültəsi təşkil etmişdi. Mühazirəni İqtisadiyyat və menecment fakültəsinin tələbələri dinlədilər və mövzu ilə bağlı suallar verdilər.

On April 5, Prof. Shlomo Weber, Rector of the New Economic School University has delivered a lecture on "Frontiers of economics of diversity: is diversity good or bad". This lecture was organized by the School of Economics and Management. The students of Economics and Management Faculty took part in this lecture, and asked questions relevant to the subject.







# XƏZƏR UNİVERSİTETİNİN KOMANDASI "BHOS MATH CUP"-IN İKİNCİSİ OLDU

# KHAZAR UNIVERSITY TEAM BECAME THE SECOND "BHOS MATH CUP" WINNER

Aprelin 6-da Bakı Ali Neft Məktəbində həmin təhsil müəssisəsi və "Roof Academic Training" mərkəzinin dəstəyi ilə "BHOS Math Cup" adlı universitetlərarası riyaziyyat yarışması keçirildi.

Yarışmada Xəzər Universiteti ilə yanaşı, Azərbaycanın digər aparıcı universitetləri – ADA, ADNSU, BMU və UFAZ universitetləri də təmsil olunurdu. Yarışmada iştirak edən komandalar öz ali məktəblərində keçirilmiş daxili turnirlərin qalibləri seçilmiş tələbələr idilər və bu yarışma universitetlərarası riyaziyyat yarışmasının yekun final mərhələsi kimi keçirilirdi.

"BHOS Math Cup" yarışmasının konseptinə gəldikdə isə, yarışma ümumi və final mərhələlərindən ibarət olmaqla, 2 mərhələdə keçirildi. Ümumi mərhələdə 3 etap olmaqla, komandalar ali riyaziyyat, həndəsə və məntiq bölmələrinin hərəsindən 10 suala düzgün cavab verməkdən ötrü bir-birləri ilə yarışdı və yekunda ən yüksək nəticə göstərmiş 4 komanda final mərhələsinə keçdi. Cəmi 7 sualdan ibarət olan final mərhələsində ən yüksək nəticə toplayan komanda qalib adını qazandı.

Ümumilikdə 16 komandanın iştirak etdiyi yarışmada Xəzər Universitetinin "Deputatlar" komandası-Elgün Xəlilov (Kompüter mühəndisliyi 2-ci kurs), Tamerlan Abdullayev (Kompüter mühəndisliyi 1-ci kurs) və Tuqay Abdullazadə (Kompüter elmləri 1-ci kurs) II yeri tutdular. Yarışmanın qalibləri sertifikat, kubok və pul mükafatı ilə mükafatlandırıldılar.

On April 6, 2019, Baku Higher Oil School hosted and co-organized the "BHOS Math Cup" Inter-university Math Competition with the support of the "Roof Academic Training" Center.

Along with Khazar University, other leading universities of Azerbaijan - ADA, ADNSU, BMU and UFAZ were also represented at this competition. The teams participating in the competition were selected winners of the domestic tournaments held at their high schools, and this competition was held as the final stage of the Inter-university Math Competition.

As for the concept of the "BHOS Math Cup", the contest consisted of two stages - general and final. The general stage itself comprised 3 rounds, wherein the teams competed with each other to answer 10 questions in high math, geometry and logic, and those four teams that have gained the highest results made it to the final. The team with the highest score in the final round of 7 questions won the title of the winner.

In the competition, which was attended by 16 teams, Khazar University's "Deputies"-Elgun Khalilov (Computer Engineering 2nd years), Tamerlan Abdullayev (Computer Engineering 1st year) and Tuqay Abdullazade (Computer science 1st year) team took second place. The winners of the competition were awarded with certificates, trophies and money prizes.







# AESOP LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ KİYEV MİLLİ İQTİSADİYYAT UNİVERSİTETİNDƏ GÖRÜŞ

Xəzər Universiteti Qəbul və tələbə şöbəsinin müdiri Lamiyə Namazova, Xəzər psixoloji mərkəzinin rəhbəri Mələk Kərimova və Təlim və tədris mərkəzinin direktoru Ülkər Bayramova aprelin 3-dən 6-dək Erasmus+ AESOP layihəsi çərçivəsində Ukraynanın Vadim Hetman adına Kiyev Milli İqtisadiyyat Universitetində layihənin idarəetmə görüşündə iştirak etdilər.

Tədbirdə Azərbaycan, Gürcüstan, Ukrayna, Portuqaliya, Polşa, İtaliya, Finlandiya, Avstriya və İngiltərədən olan 16 tərəfdaş universitetin 40-dan çox nümayəndəsi iştirak edirdi.

2 günlük görüşdə tərəfdaş universitetlər layihə çərçivəsində görülən işlərdən, ombudsman ofislərinin qurulması və onların fəaliyyəti, tələbələr və universitetlərin akademik heyəti, həmçinin, administrativ əməkdaşlar üçün keçirilmiş təlimlər haqqında məlumat verdilər, tələbələr arasında ombudsman ofislərinin fəaliyyəti ilə bağlı keçirilmiş sorğuların nəticələrini təqdim etdilər. Görüşün sonunda layihə tərəfdaşları növbəti idarəetmə görüşünün mayda Xəzər Universitetində və layihənin son konfransının iyulda Akaki Tsereteli Universitetində (Gürcüstan) keçirilməsi qərarına gəldilər.

Təlimlərin sonunda iştirakçılara sertifikatlar təqdim olundu.

# MEETING AT KIEV NATIONAL ECONOMIC UNIVERSITY WITHIN AESOP PROJECT

From April 3 to 6, within the framework of the Erasmus + AESOP Project, Lamiya Namazova, Head of Admission and Information Office, Melek Karimova, Director of the Center for Psychological Service and Ulkar Bayramova, Director of Teaching and Learning Centre at Khazar University visited Kiev National Economic University named after Vadim Hetman in Ukraine and took part in a project Management Meeting.

More than 40 representatives from 16 partner universities from Azerbaijan, Georgia, Ukraine, Portugal, Poland, Italy, Finland, Austria and England attended the event.

During a 2-day meeting, partner universities provided information on the works completed within the project, particularly, the establishment and operation of ombudsman offices, students and the academic staff, as well as trainings for administrative staff, and presented the results of the surveys conducted among the students regarding the operation of the ombudsman offices. At the end of the meeting the project partners decided to hold the next Management Meeting at Khazar University in May and the Final Conference of the project at Akaki Tsereteli University (Georgia) in July.

At the end of the training, the participants were awarded certificates.

# UPON OUR RETURN

## Varsha Maistry-Ahmed

"The Polymaths" kitabının müəllifi Waqas Ahmedlə birlikdə Xəzər Universitetinin qonağı olan Varsha xanım Bakıdan Londona qayıtdıqdan sonra Bakıya, Xəzər Universitetinə, "Dünya" məktəbinə sevgisini şeirə çevirmişdir.

Being guests of Khazar University and after returning from Baku to London, Waqas Ahmed, the author of "The Polymaths" book, and Varsha Khanim, turned their love to Baku, Khazar University and "Dunya" School into poetry.



Bhaijaan[1], Baku,
Behen[2]Khazaar.

Marbled corridors leave their scars,
Flames of towers,
Boulevards,
Dhunya; Dhunya; shooting stars.

Strive for truth,
Treasure beauty,
You have the youth;
You know community.

Send out your message on the Caspian sea,
Float it down to Nizami and me.

And I will send it out forthwith,
An impassioned plea for a life of grit;
To know all rounds, to know the whole,
To tell the story as one soul.

Bhaijaan, Baku,
Behen Khazaar,
I will light my oil lamp[3]; O'Allah.

*Caspian Sea, 7 March*

---

[1] Urdu/Hindi term of respect for elder brother.
[2] Urdu/Hindi term of respect for sister.
[3] Reference to Baku, the land of fire, and the Hindu ritual of Aarti (the Vedic concept of a fire ritual) in which oil is placed in a brass vessel and set alight with the intention of offering praise to God and signifying respect, gratitude and hope during prayer and entreating benevolence for those prayed for.



# TƏLƏBƏLƏR QOBUSTANA SƏFƏR ETDİLƏR

# STUDENTS VISITED GOBUSTAN

Aprelin 6-da Xəzər Universitetinin tərəfdaşı olduğu "Şəhər incəsənəti Azərbaycan" (*City Art Azerbaijan*) layihəsinin könüllülərinin təşəbbüsü və layihənin digər tərəfdaşı olan Qobustan Milli Tarixi-Bədii Qoruğunun dəstəyi ilə universitetin Humanitar, təhsil və sosial elmlər fakültəsi tələbələrinin layihəsinin iştirakçılarının və xaricdən olan gənc arxeoloqların Qobustana səfəri təşkil edildi. Səfər tərəfdaşlıq münasibətlərini möhkəmləndirmək, layihə çərçivəsində əhatəli tanışlıq və gələcək işgüzar fəaliyyəti əlaqələndirmək məqsədi daşıyırdı. Layihə adından səfərdə heykəltəraş Məmməd Rəşidov və Azad Aslanov iştirak edirdilər. Səfərə Xəzər Universitetinin müəllimləri Ziya Səmədli və Orxan Zamanov da qatılmışdılar.

Səfərin təşkilində layihənin aparıcı üzvləri Səidə Musayeva (Qobustan qoruğu), İlahə Yusifli, Laman Kazımlı və İlkin Həsənzadə (hər üçü Xəzər Universiteti) yaxından iştirak etdilər.

Ekskursiya müddətində muzeyin bələdçisi Meziolit, Neolit və bir neçə tarixi dövrlər haqqında məlumatlar verdi. Bələdçi Qobustanda qorunub saxlanılan ibtidai icma dövründən başlayaraq, qədim dövr abidələri, rəsmləri, məişət əşyaları, petroqriflərin yaranması, rasional və irrasionların yaranması səbəbləri haqqında, həmçinin, onların bu günümüzə qədər gəlib çıxması və qorunması barədə tarixi sübutlarla məlumatlar verdi.

Muzey bələdçisi elektron təsvirlərlə müşayiət olunan mühazirədən sonra tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırdı.

On April 6, with the support of Khazar University's partner "City Art Azerbaijan" volunteers project and also with the assistance rendered by another project's associate - the Gobustan National Historical-Artistic Reserve, the visit to Gobustan of the participants of the students' project of the School of Humanities, Education and Social Sciences and young archeologists from abroad, was organized. The visit was aimed at strengthening partnership relations, encouraging the extensive acquaintance within the framework of the project and coordinating future business activities. On behalf of the project, sculptor Mamed Rashidov and Azad Aslanov took part at the event. Teachers of Khazar University Ziya Samadli and Orkhan Zamanov also joined the event.

Leading members of the project Saida Musayeva (Gobustan Reserve), Ilaha Yusifli, Laman Kazimli and Ilkin Hasanzadeh (all from Khazar University) actively participated in the organization of the event.

During the excursion, the museum guide gave information about Mesolithic, Neolithic and several other historical periods. The guide provided information on exhibit items, preserved in Gobustan, particularly, on ancient monuments, paintings, household items, petroglyphs, rational and irrational reasons, and also historical evidence of their survival and protection from the early community.

Furthermore, the museum guide answered numerous questions asked by the participants after the lecture, accompanied by electronic illustrations.














# DEKAN YARIŞMADA YER TUTAN TƏLƏBƏLƏRİ QƏBUL ETDİ

# DEAN MET WITH STUDENTS DISTINGUISHED IN THE COMPETITION

Aprelin 10-da Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Hassan Niknafs Bakı Ali Neft Məktəbində keçirilmiş "BHOS Math Cup" adlı universitetlərarası riyaziyyat yarışmasında 2-ci yer tutmuş Xəzər Universitetinin komandasının üzvləri-Elgün Xəlilov (Kompüter mühəndisliyi, 2-ci kurs), Tamerlan Abdullayev (Kompüter mühəndisliyi, 1-ci kurs) və Tuqay Abdullazadə (Kompüter elmləri, 1-ci kurs) ilə görüşdü, onlara təşəkkürnamə və hədiyyə təqdim etdi.

On April 10, Hassan Niknafs, the Dean of the Faculty of Natural Sciences and Engineering met with members of the Khazar University team-Elgun Khalilov (Computer Engineering 2nd years), Tamerlan Abdullayev (Computer Engineering 1st year) and Tuqay Abdullazade (Computer science 1st year), who gained the second place at the "BHOS Math Cup" Inter-University Contest, held at the Baku Higher Oil School, and presented them letters of gratitude and small gifts.



*"Xəzər" və dünya"*

"Əcnəbi tələbələrlə müsahibələr" silsiləsindən

## DANU SETIAWAN: "XƏZƏR" MƏNƏ TÜRKİYƏDƏ BİR SEMESTR KEÇİRMƏK ŞANSINI VERDİ"

"Mənim uşaqlıq vaxtımdan etibarən sənaye mühəndisliyini öyrənməyə həvəsim var idi, amma bu sahədə bakalavr dərəcəsini əldə etdikdən sonra, bankda işləməyə başladım. Öz işimdən o qədər məmnun idim ki, bank sahəsində peşəkarlığımı artırmaq üçün magistr səviyyəsində təhsilimi davam etdirməyə qərar verdim" – deyir İndoneziyadan olan Danu Setiawan – Xəzər Universitetində tam təhsil haqqının ödənişindən azad edilən 2-ci kurs MBA tələbəsi.

"Xəzər Universitetindəki MBA proqramının ən böyük üstünlüyü ondan ibarətdir ki, müəllimlərin əksəriyyəti bank sektorunun müxtəlif sahələrində işləyən mütəxəssislərdir və bu, bilikləri birbaşa əldə etməyə imkan verir".

"Xəzər Universitetinin digər universitetlərlə yaxşı münasibətləri var və mübadilə proqramlarına qatılmaq, xaricdə bir və ya iki semestr oxumaq üçün imkan yaradır. Mən Mövlanə Mübadilə Proqramına qatıldım və Türkiyədəki Çukurova Universitetində bir semestr təhsil aldım. Türkiyədə olduğum vaxt 20-dən çox şəhərə səyahət etdim - bu, həm öyrənmək, həm də Türkiyəni kəşf etmək üçün gözəl bir fürsət idi".

"Mən səyahət etməyi çox sevirəm və Azərbaycanı təkcə təhsil üçün deyil, həm də turistik bir yer kimi tövsiyə edirəm. Azərbaycanın bir neçə rayonunda oldum, ancaq mənim sevdiyim rayon Qazaxdır, ora dostumun məsləhətindən sonra getdim. Onun məsləhətinə qulaq asdığım üçün xoşbəxtəm - Qazax özünün yaşıl təpələri və əsrarəngiz təbiəti ilə gözəldir" – söyləyir Danu Setiawan.

Müsahibəni hazırladı: **Lamiyə Pənahova**
*Beynəlxalq Əlaqələr Ofisinin koordinatoru.*

*"Khazar and World"*

From the series "Interviews with Foreign Students"

## "KHAZAR GAVE ME AN OPPORTUNITY TO SPEND ONE SEMESTER IN TURKEY" DANU SETIAWAN

"My passion since childhood was studying Industrial Engineering. However, after obtaining my bachelor's degree in this field, I ended up working in a bank. I enjoyed the work I was doing so much that I decided to continue my studies at a master's level to increase my professional skills in the banking field," says Danu Setiawan from Indonesia, a second year MBA student at Khazar University who received a full tuition fee waiver.

"The biggest advantage of studying MBA at Khazar University is that most of the lecturers are professionals who come from industries: they are currently working in different sectors of banking. This enables us to receive first-hand knowledge from real industry professionals."

"Khazar University is well connected to other universities and gives its students a chance to participate in exchange programs and spend a semester or two abroad. I participated in Mevlana Exchange Program and spent a semester in Turkey, in Chukurova University. While in Turkey, I travelled to more than 20 cities – this was an amazing experience of both studying and exploring Turkey."

"I love travelling and would recommend Azerbaijan not only for studying but also as a touristic destination. I have been to several regions of Azerbaijan, but my favorite so far is Gazakh to which I went following the advice of my friend. I am very happy I listened to him – Gazakh is just beautiful with its green hills and stunning nature."

Interview prepared by **Lamiya Panahova**
*Coordinator at International Affairs office*






# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI AİI-DƏ SEMİNAR KEÇİRDİ

# KHAZAR UNIVERSITY'S EMPLOYEE HELD SEMINAR IN AIT

Aprelin 9-da Azərbaycan İlahiyyat İnstitutunun (AİI) dəvəti ilə "Clarivate Analytics" bazasının Azərbaycanda təşkil etdiyi təlim proqramının rəsmi eksperti, *Khazar Journal of Humanities and Social Sciences* ("Xəzər humanitar və sosial elmlər jurnalı") beynəlxalq elmi jurnalın redaktor köməkçisi, sosial elmlər üzrə fəlsəfə doktoru Xəyalə Məmmədovanın təqdimatında "Elmi məqalənin yazılması və beynəlxalq elmi nəşrlərin tələbləri" mövzusunda seminar təşkil olundu.

AİI rektoru Ceyhun Məmmədov seminar iştirakçılarını salamlayaraq, ali təhsil müəssisəsində institut əməkdaşlarının və tələbələrin elmi potensialının gücləndirilməsi, yerli, həmçinin, beynəlxalq jurnallarda məqalələrin nəşri və onların bu sahədə fəallığının təşviqi məqsədi ilə müxtəlif seminarlar, "dəyirmi masa"lar, treninqlər keçirildiyini bildirdi. Qeyd etdi ki, informasiya mühitini formalaşdıran rəqəmsal əsrdə davamlı elmi inkişafın təmin olunmasında əsas vəzifələrdən biri beynəlxalq elektron elmi informasiya məkanına inteqrasiyadır.

Xəyalə Məmmədova "Elmi məqalənin yazılması və beynəlxalq elmi nəşrlərin tələbləri" mövzusunda məruzə ilə çıxış etdi. X.Məmmədova bildirdi ki, seminarın məqsədi Azərbaycan alimlərinin əsərlərinin dünyanın nüfuzlu yüksək indeksli jurnallarında dərc edilməsi, bu sahədə əməkdaşlığın davamlı olması ilə bağlı maarifləndirmə işlərinin aparılması və digər məsələlərdir.

X.Məmmədova beynəlxalq tələblərə cavab verən elmi məqalələrin strukturunun formalaşdırılması, elmi məqalələrin jurnallarda çap olunması, elmi jurnalların araşdırılması və seçilmə qaydaları haqqında ətraflı məlumat verdi. Məruzəçi elmi məqalənin beynəlxalq jurnallara təqdim edilmə qaydaları; məqalənin çap olunması üçün müəyyən bacarıqların inkişaf etdirilməsi; redaktor və rəyçilərin cavablandırılması ilə bağlı mövzular haqqında da əhatəli danışdı.

Seminar mövzu ətrafında müzakirələrlə başa çatdı.

On April 9, at the invitation of the Azerbaijan Institute of Theology (AIT), Khayala Mammadova, PhD in Social Sciences, the official expert of the training program organized by the "Clarivate Analytics" database in Azerbaijan, the assistant editor of the international scientific journal "Khazar Journal of Humanities and Social Sciences", delivered a presentation on "Writing scientific articles and requirements of international scientific publication houses" within the framework of the organized seminar.

Jeyhun Mammadov, the Rector of AIT, welcomed the participants and asserted that various seminars, roundtables, trainings are held in order to strengthen the scientific potential of the institute's staff and students, as well as to encourage their activity in this field and stimulate their commitment in publishing articles in local and international journals. He noted that one of the main tasks in ensuring the continuous scientific development in the digital age forming the information environment is - the integration into the international electronic scientific information platform.

Khayala Mammadova made a report on "Writing scientific articles and requirements of international scientific publication houses". K. Mammadova indicated that the purpose of the seminar was to publish works of Azerbaijani scholars in world-known high-index journals, and conducting continuous awareness-raising activities in this field.

K. Mammadova provided detailed information on the structure of scientific articles meeting the international requirements, publishing articles in journals, research journals and selection criteria. Moreover, she has informed on the guidelines for submission of articles in international journals; improving special skills in articles' publication; editors and reviewers' response.

The seminar was finished with discussions on the subject.





# XƏZƏR UNİVERSİTETİNİN SOCAR FUGRO ŞİRKƏTİ İLƏ GÖRÜŞÜ

# KHAZAR UNIVERSITY MEETING WITH SOCAR FUGRO

Aprelin 11-də Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Hassan Niknafs, fakültənin müəllimləri və yuxarı kurs tələbələri ilə SOCAR Fugro şirkətinin görüşü oldu. SOCAR-ın Geotexnika üzrə layihə meneceri Hidayət Əlizadə öz təqdimatında dənizdə və quruda platformanın tikilməsi, geodezik işlərin aparılması, metal konstruksiyaların quraşdırılması üçün yeni texnoloji avadanlıqlarla təchiz olunduğu haqqında məlumat verdi, tələbələrə yay təcrübə proqramı və işçi qəbulu proseslərinin necə aparıldığını izah etdi. Bundan başqa, gələcəkdə tələbələrin yay təcrübəsi haqqında razılığa gəlindi. Əlaçı tələbələrin yay təcrübə proqramında iştirak etmək imkanları olduğu, bu proqramı müvəffəqiyyətlə bitirdiklərində, işə qəbul olma ehtimalının yüksək olduğu nəzərə çatdırıldı.

Tələbələrlə görüşdən sonra qonaqlar İnşaat mühəndisliyi departamentinin laboratoriyasına baş çəkdilər. İnşaat mühəndisliyi laboratoriyasının heyəti ilə əməkdaşlıq etmək istədiklərini vurğuladılar. Öz gələcək layihələrində xarici ölkələrdən mütəxəssis gətirilməsinə ehtiyac olmadığını, yerli mütəxəssislərlə yollarına davam etmək istədiklərini qeyd etdilər.

On April 11, Dr. Hassan Niknafs, Dean of the School of Natural Sciences and Engineering at Khazar University, faculty members and senior course students met with SOCAR Fugro. Project manager of Geotechnicion Hidayat Alizade from SOCAR, making presentation, provided information about offshore and onshore platforms constructions, conducting geodesics works, new technological equipment for the installation of metal constructions. He also informed students on a summer internship program and the operation of the recruitment processes. Moreover, summer internship for the students was agreed. It was communicated that the excellent students are provided with the opportunity to participate in the Summer Internship Program, and when they successfully complete the program are highly likely to be offered a job.

After the meeting with the students, the guests visited the Civil Engineering Department's laboratory. They highlighted their wish to cooperate with the Civil Engineering Laboratory staff, indicating that in their future projects, they intend to move forward with the local experts, declining the need to involve experts from the abroad.





# OKSFORD, LİNKOLN VƏ KEMBRİC UNİVERSİTETLƏRİNİN NÜMAYƏNDƏLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Aprelin 12-də Oksford, Linkoln və Kembric universitetlərinin nümayəndələri Xəzər Universitetində oldular.

Görüşün məqsədi "Elm, fəlsəfə və teologiya: Mərkəzi və Şərqi Avropada perspektivlər" adlı akademik layihə haqqında məlumat vermək idi. Layihə Oksford Universitetinin təşəbbüsü, Templeton Fondunun maliyyə dəstəyi ilə Mərkəzi və Şərqi Avropa ölkələrində qeyd edilmiş sahələrdə perspektivli işlərin həyata keçirilməsini nəzərdə tutur.

Görüşdə Xəzər Universitetinin əməkdaşlarından Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova, Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova, Magistratura, doktorantura və elmi işlər bölməsinin koordinatoru Cabir Məmmədli, Psixologiya departamentinin koordinatoru və Xəzər psixoloji mərkəzinin direktoru Mələk Kərimova, Təlim mərkəzinin direktoru Ülkər Bayramova, Siyasi elmlər və fəlsəfə departamentinin müəllimləri Dr. Vasif Hüseynov və Tural Hüseynli, həmin departamentin əməkdaşı Aygün Əliyeva iştirak etdilər.

Əməkdaşlar qonaqlara universitetin tədqiqat imkanları, beynəlxalq əlaqələri barədə məlumat verdilər. Bundan əlavə, görüşdə birgə tədqiqat, konfransların, akademik layihələrin təşkili üzrə qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olundu.

# REPRESENTATIVES OF OXFORD, LINCOLN AND CAMBRIDGE UNIVERSITIES AT KHAZAR UNIVERSITY

On April 12, representatives of the Oxford, Lincoln and Cambridge Universities visited Khazar University.

The aim of the meeting was to give information about the academic project named Science, Philosophy and Theology: Central and Eastern European Perspectives The project is an Oxford University-based initiative funded by the Templeton Foundation, dedicated to supporting high-potential work in these fields in Central and Eastern Europeam countries.

Participants from the Khazar University included Ms. Lyudmila Sotova, Head of Quality Assurance Department; Ms. Turan Jafarova, Director of International Affairs Office; Jabir Mammadli, the Coordinator of the Division of Graduate Studies and Research; Malak Karimova, Coordinator at the Department of Psychology and Director of Psychology Center; Ulkar Bayramova, Director of Training Center; Dr. Vasif Huseynov, full time instructor of Political Science and Philosophy Department; Mr. Tural Huseynli, lecturer of Political Science and Philosophy Department.

Staff members informed guests about research capacity, international relations of the University. Moreover, mutual collaboration opportunities on interdisciplinary research, organization of conferences, and academic projects were discussed during the meeting.




# "SÖZ" YARADICILIQ BİRLİYİ "YARADICI YAZI" DƏRSİNİN QONAĞI OLDU

# CREATIVE UNION "SOZ" WAS A GUEST OF CREATIVE WRITING LESSON

Aprelin 12-də Bakı Dövlət Universiteti Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu Xəzər Universitetində "Yaradıcı yazı" dərsinin qonağı oldu. Humanitar, təhsil və sosial elmlər fakültəsi Dillər və ədəbiyyatlar departamentinin müəllimi Qardaşxan Əzizxanlının dəvəti ilə M.Osmanoğlunun rəhbərlik etdiyi "Söz" Yaradıcılıq Birliyini təmsil edən tələbələrdən bir qrupu –Nailə Ağayeva, Qismət Cəfərov, Cəmil Cəmilbəyli, Şəhla Abbaszadə, Seymur Hüseynzadə, Elnarə Talıbova, Rüfət Qaçayev də tədbirə gəlmişdilər.

Xəzər Universitetinin tələbəsi Səidə Cabarova gələn qonaqla bağlı qısa təqdimatla çıxış etdikdən sonra ədəbiyyatşünas alim "Bədii mətn, müəllif, təhkiyə və oxucu münasibətləri" mövzusunda mühazirə oxudu, verilən sualları cavablandırdı.

Gənc şairə Elnarə Talıbova şeirlər söylədi və gitara ilə "Uzaq yaşıl ada", "Göy göl", "Sən gəlməz oldun" mahnılarını ifa edən Rüfət Qaçayevlə birgə mahnı oxudu. Xəzər Universitetinin tələbələri Pinar Məmmədzadə, Aytac Həsənova da şeirlər səsləndirdilər.

Sonda M.Osmanoğlu Xəzər Universitetinin tələbələrinə kitablarını bağışladı.

On April 12, Mati Osmanoglu, Associate Professor of the Department of History of Azerbaijan Literature, Baku State University was a guest of the creative writing lesson at Khazar University. Upon the invitation of Gardashkhan Azizkhanli, instructor of the Department of Languages and Literature, the event was attended by a group of students - Naila Agayeva, Qismet Jafarov, Jamil Jamilbeyli, Shahla Abbaszade, Seymur Huseynzade, Elnara Talibova, Rufat Gachayev, representing "Soz" Creative Union led by M. Osmanoglu.

Khazar University student Saida Cabarova after making a brief presentation on the guest's life and creativity, delivered a report on "Art text, Authorship, Narrative and Reader Relations" and answered questions.

The young poet Elnara Talibova recited poems and sang with her guitar, accompanied by Rufat Gachayev, songs like "Uzaq yaşıl ada" (Far away green Island), "Göy göl" (Blue Lake), and "Sən gəlməz oldun" (You won't come). Students from Khazar University Pinar Mammadzade, Aytaj Hasanova also performed poems.

At the end, M. Osmanoglu presented his books to Khazar University students.



# NİZAMİ LAYİHƏSİNİN NƏTİCƏLƏRİNƏ DAİR MƏLUMAT SESSİYASI

# INFO SESSION ON RESULTS OF NIZAMI PROJECT

Aprelin 12-də Xəzər Universitetinin əməkdaşları - rektor dosent İradə Xəlilova, İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Elmar Mustafayev Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təşkil edilən Erasmus+ NİZAMİ layihəsi haqqında məlumat sessiyasında iştirak etdilər. Məlumat sessiyasında Azərbaycanın ali təhsil müəssisələri, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Montpellier Universiteti, Fransanın Azərbaycandakı səfirliyi və Milli Erasmus+ ofisinin nümayəndələri də iştirak edirdilər.

Məlumat gününün məqsədi Erasmus+ NİZAMİ layihəsinin nəticələrini bütün Azərbaycan ali təhsil müəssisələri ilə bölüşmək idi. İnformasiya sessiyasının əsas məruzəçiləri –Yaqub Priyev (Azərbaycan Respublikası Təhsil Nazirliyi), akademik Rasim Əliquliyev (AMEA), Fransanın Azərbaycandakı səfirliyinin mədəniyyət müşaviri Yohan Şitterer, Milli Erasmus+ Ofisinin rəhbəri Pərviz Bağırov, NİZAMİ layihəsinin koordinatoru Veronique Montero və tərəfdaş universitetlərin təqdimatçıları idi.

Xəzər Universiteti adından təqdimatı Dr. Elmar Mustafayev iştirakçıların diqqətinə çatdırdı. Təqdimatda Dr. Elmar Mustafayev iştirakçıları NİZAMİ layihəsi çərçivəsində yaradılan Xəzər Universitetinin nəzdindəki doktorantura məktəbinin modeli ilə tanış etdi.

On April 12, Khazar University staff members - Associate Professor Irada Khalilova, Rector of Khazar University; Ms. Raziya Isayeva, Director of Development Center; Dr. Jeyhun Mammadov, Dean of the School of Economics and Management; Dr. Elmar Mustafayev, Head of the Political Science and Philosophy Department - participated in an info day on Erasmus+ Nizami Project organized by the Ministry of Education (MoE) of Azerbaijan Republic. The info session was also attended by Azerbaijani higher-education institutions (HEI), Azerbaijan National Academy of Science (ANAS), Montpellier University, French Embassy in Baku, and National Erasmus+ Office.

The objective of the info session was to share the results of Erasmus+ Nizami Project with all Azerbaijani HEIs. The info session consisted of speeches of keynote speakers - Mr. Yagub Priyev (MoE), Academician Rasim Aliguliyev (ANAS), Mr. Johan Schitterer, Cultural Counselor of the French Embassy, Mr. Parviz Bagirov, Head of the National Erasmus+ Office, Ms. Veronique Montero, Co-Ordinator of Nizami Project – and presentations of partner universities.

The presentation of Khazar University was delivered by Dr. Elmar Mustafayev. In his presentation, Elmar Mustafayev acquainted the participants with established Doctoral School model of Khazar University within the Nizami Project.



# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI İSMAYILLI ŞƏHƏRİNDƏ

# KHAZAR UNIVERSITY'S STAFF IN CITY OF ISMAYILLI

Aprelin 13-də Xəzər Universitetinə tələbələrin cəlb olunması üzrə işçi qrupun rəhbəri professor Fuat Rəsulov və Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru, Xəzər psixoloji xidmət mərkəzinin direktoru Mələk Kərimova universiteti regionlarda tanıtmaq məqsədilə İsmayıllı şəhərinə səfər ediblər.

Səfərin əsas məqsədi 11-ci sinif şagirdləri ilə görüşərək, universitet haqqında məlumat vermək və eyni zamanda, İsmayıllıdakı "Niyal" hazırlıq kurslarının dəvəti ilə respublikanın orta məktəblərində keçiriləcək buraxılış imtahanlarına psixoloji hazırlıq məqsədilə "İmtahan həyəcanı" mövzusunda psixoloji seminarın keçirilməsi idi.

Tədbiri "Niyal" hazırlıq kursunun müdiri Həsən Məmmədov açdı. O, qonaqları salamladı və sözü Fuat Rəsulova verdi. O, Xəzər Universiteti tərəfindən İsmayıllı rayonunda mütəmadi tədbirlər keçirildiyini bildirərək, seminara gələn iştirakçılara öz təşəkkürünü bildirdi, Xəzər Universiteti barəsində qısa məlumat verdi və univesitetin üstünlüklərini qeyd etdi.

Sonra Mələk Kərimova abituriyentlərə qəbul imtahanından əvvəl yaşaya biləcəkləri həyəcan zamanı nələrə diqqət yetirmək haqqında məlumat verməklə yanaşı, imtahana hazırlıq ilə əlaqədardə tövsiyələrini bildirdi.

Mövzu ilə bağlı müzakirələr aparıldı və suallara cavab verildi.

Tədbirin sonunda fərdi qaydada abituruiyentlərə psixoloji dəstək göstərildi.

On April 13, Professor Fuad Rasulov, Head of the Working Group on Attracting Students to Khazar University and Melek Karimova, Coordinator of the Department of Psychology of Khazar University and Director of the Center for Psychological Service traveled to Ismayilli to introduce the University.

The main purpose of the visit was to meet with the 11th grade students and to provide them with an information about the University and at the same time upon the invitation of the "Niyal" preparatory courses in Ismayilli, to conduct a psychological seminar on "Exam's thrill" aimed at psychological preparation for the final exams held at the secondary schools of the Republic.

The event was opened by Hasan Mammadov, the Director of "Niyal" Preparatory Courses. He welcomed the guests and gave speech to Fuat Rasulov. He expressed his gratitude to the participants of the seminar, saying that regular events were held in Ismayilli by Khazar University. He gave a brief information about Khazar University and highlighted its advantages.

Later on, Melek Karimova informed the applicants how they could cope with the exam's thrill before the entrance exams and also talked about what students could do during the exam preparation process.

Discussions were held on the subject and questions were answered.

At the end of the event, future university applicant's questions were answered individually and psychological support was provided.






## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI İQLİM DƏYİŞİKLİYİNƏ HƏSR OLUNMUŞ TƏLİMDƏ ÇIXIŞ ETDİ

## KHAZAR UNIVERSITY EMPLOYEE DELIVERS TALK IN TRAINING ON CLIMATE CHANGE

Aprelin 11-14-də "Azergold" MMC-nin təşkilatçılığı, Heydər Əliyev Fondu, Azərbaycan Resppulikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə Bakıda "Fərdi aqrar təsərrüfatların iqlim dəyişikliyinə adaptasiyası" mövzusunda təlim keçirildi. Təlimdə Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Dr. Rövşən Abbasov "İqlim dəyişikliyinin Azərbaycanda aqrar sektora təsiri: tendensiyalar və mövcud problemlər" və "Milli aqrar sektorda iqlim dəyişikliyi zəminində su idarəçiliyi: mövcud problemlər və həll yolları" mövzularında çıxış etdi.

Təlimdə "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, Heydər Əliyev Fondunun Beynəlxalq Əlaqələr Departamentinin rəhbəri Soltan Məmmədov, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Novruz Quliyev, Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbov iştirak edirdilər.

Təlimdə Azərbaycanın müxtəlif rayonlarından 60 fermer də iştirak edirdi.

On April 11-14, a training on "Adaptation of Individual Agricultural Farms to Climate Change" was held in Baku, organized by "Azergold" LLC, supported by Heydar Aliyev Foundation, Ministry of Ecology and Natural Resources and Ministry of Agriculture of the Republic of Azerbaijan. At the training, Dr. Rovshan Abbasov, Director of the Department of Geography and the Environment at Khazar University, delivered talks on such themes as: "The impact of climate change on the agrarian sector in Azerbaijan: tendencies and existing problems" and "Water management in the context of climate change in the national agrarian sector: existing problems and solutions".

The training was attended by Zakir Ibrahimov, the Chairman of the Board of "AzerGold", Soltan Mammadov, Head of International Relations Department of the Heydar Aliyev Foundation, Novruz Guliyev, Deputy Minister of Ecology and Natural Resources, Seyfaddin Talibov, Deputy Minister of Agriculture.

Moreover, 60 farmers from different regions of Azerbaijan also participated in the training.

# PROFESSOR HAMLET İSAXANLI BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ ETDİ

# PROFESSOR HAMLET ISAKHANLI DELIVERS TALK AT INTERNATIONAL CONFERENCE

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı aprelin 12-dən 14-dək Türkiyənin İzmir şəhərində keçirilmiş "Beynəlxalq elm, riyaziyyat, sahibkarlıq və texnologiya təhsili" konfransında iştirak etdi. Professor İsaxanlı aprelin 12-də çıxış etmək üçün dəvət olunmuş iki spikerdən biri kimi konfransda "İki mədəniyyət və təhsil: divarlar və körpülər" adlı məruzəsi ilə təqdimat keçirdi.

On 12-14 April, Prof. Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, visited Izmir, Turkey to participate in the International Conference on Science, Mathematics, Entrepreneurship and Technology Education. Being one of the two invited speakers on 12 April, Prof. Isakhanli made a presentation entitled as "Two Cultures and Education: Walls and Bridges".

## PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞI İQTİSAD UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ ÜÇÜN SEMİNAR KEÇİRDİ

## PSYCHOLOGY DEPARTMENT EMPLOYEE DELIVERED SEMINAR AT THE ECONOMIC UNIVERSITY

Aprelin 16-da Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi Nilufər Əlizadə Azərbaycan Dövlət İqtisad Universitetinin dəvəti ilə "Sağlamlıq psixologiyası" adlı seminar keçirdi.

Seminarda psixologiyanın elm kimi yaranma tarixi, tarix boyu şüur və şüuraltının insan orqanizmindəki rolu, sağlamlıq psixologiyasının yaranması və hazırda Azərbaycanda və xarici ölkələrdə, xüsusilə də, İngiltərədə tətbiqi haqqında praktiki nümunələrlə danışıldı. Hazırda aktual olan psixoloji xidmət haqqında yaranan stiqma və bunun insanlar üzərindəki neqativ təsiri də seminarda xüsusi vurğulandı.

Tələbələrin istəyini nəzərə alaraq, sonda xaricdə təhsil və bu yolda düzgün strategiyanın qurulması haqqında müzakirələrə də yer verildi.

On April 16, Nilufar Alizade, teacher of the Department of Psychology at Khazar University, delivered a seminar entitled "Health Psychology" at the invitation of the Azerbaijan State Economic University. During the seminar the following issues were discussed: history of formation of psychology as a science, the mechanism of accepting the role of conscious and subconscious in the human body throughout the history, which resulted in the emergence of the health psychology. The seminar also covered the practical examples of health psychology's application in Azerbaijan and abroad, particularly in the UK. The current stigma evolved around the psychological service and the negative effects of it on people were emphasized at the seminar. Taking into account students' requests, there were also discussions about education abroad and the establishment of the right strategy on this direction



## XƏZƏR UNİVERSİTETİNİN MULTİMEDİA MƏRKƏZİ TƏQDİM EDİR

Xəzər Universiteti Multimedia mərkəzinin əməkdaşları Bakının maraqlı görüntülərini lentə almışlar.

## KHAZAR UNIVERSITY'S MULTIMEDIA CENTER PRESENTS

Employees of Multimedia Center of the Khazar University took interesting video footage of Baku.

Tağı Məmmədov



Lamiyə Piriyeva





Arzu Məmmədova



Lamiyə Piriyeva

Sevinc Həsənova



Şəbnəm Rüstəmli



# BƏDBƏXT HADİSƏ
## (hekayə)

James Joyce
(Ceyms Coys)

*İrland yazıçısı Ceyms Coys 1882-ci il fevralın 2-də Dublin şəhərində anadan olmuşdur. 1904-cü ildən Paris, Triyest və Sürixdə yaşamışdır. Coysun yaradıcılığı ingilis dilindədir. Onun mənzum parodiyalardan ibarət "Kamera musiqisi" adlı ilk kitabı 1907-ci ildə işıq üzü görmüşdür. O, realist səpkili "Dublinlilər" (1914) hekayə kitabının, "Rəssamın cavanlıq portreti" (1916) avtobioqrafik romanının, "Sürgün olunmuşlar" (1918) pyesinin müəllifidir. 1922-ci ildə qələmə aldığı "Uliss" romanında cəmiyyətdə kök salmış ictimai bərabərsizlikdən, ümidsizlikdən və inamsızlıqdan bəhs edilir. Ceyms Coys 13 yanvar 1941-ci ildə Sürixdə vəfat etmişdir.*

Cənab Ceyms Dafi sakini olduğu şəhərdən imkan daxilində uzaqlaşmaq istədiyindən, eləcə də Dublinin digər qəsəbələrini kobud, iddialı və həddən ziyadə müasir hesab etdiyindən, Çepelizodedə, köhnə, qaranlıq bir evdə ömür sürürdü. Evin pəncərəsindən, illərlə baxımsız qalmış araq zavodu, sahilində Dublinin yerləşdiyi dayaz çay görünürdü. Otağın divarları hündür, döşəməsində xalça yox idi. Divarlarda bir dənə də olsun şəkil gözə dəymirdi. Qara dəmir çarpayını, dəmir əlüzyuyanı, dörd hörmə kətili, asılqanı, kömür qutusunu, iki püpitrli kvadrat masanı, bütün əşyaları özü seçmişdi. Kitab şkafını divar oyuğundakı ağ taxta rəflər əvəzləyirdi. Ağ yorğan–döşəyin altına qara-qırmızı rəngli şal sərilmiş, əlüzyuyanın üstündən balaca əl güzgüsü asılmışdı. Otağın yeganə bəzəyi olan abajurlu lampa gündüzlər də divar sobasının üstündən asılı qalırdı. Ağ taxta rəflərin üstündəki kitablar boy sırasıyla düzülmüşdü. Ən aşağı rəfin bir küncündə Vordsvortun seçilmiş əsərləri, o biri küncündə isə "Meynut kataxezisi"nin qeyd dəftərçəsinin kolenkor cildinə bürünmüş bir nüsxəsi vardı. Püpitrdə daim yazı ləvazimatları, yeşikdə isə Qauptmanın "Mikael Kramer" pyesinin kənarında qırmızı mürəkkəblə qeydlər aparılmış əlyazması və tunc rəngli sancaqla bir-birlərinə bənd edilmiş vərəq dəstəsi saxlanırdı. Bu vərəqlərdə arabir bəzi ifadələr peyda olurdu. İronik əhval-ruhiyyədə olduğu günlərdən birində cənab Dafi ilk vərəqin üstünə qaraciyər dərmanının reklam mətnini yapışdırmışdı. Püpitrin qapağı açılanda, güclə duyulan xəfif bir ətir yayılırdı. Ya sidr ağacından düzəldilmiş sadə qələmlərin, ya yapışqanın, ya da yaddan çıxıb püpitrdə qaldığından təravətini itirmiş almaların ətriydi.

Cənab Dafi fiziki və ya ruhi cəhətdən natarazlığın istənilən təzahürünə ikrahla yanaşırdı. Heç şübhəsiz, orta əsr alimləri cənab Dafinin Saturnun himayəsi altında doğulduğunu gümanlayardılar. İllərin yorğunluğu iz salmış bənizi qəhvəyi çalarlarıyla Dublin küçələrini xatırladırdı. Uzunsov başını qapayan cansız qara saçları uzanmışdı, qızılı bığları ağzının narazı ifadəsini sezilməyəcək qədər gizləyirdi, yanağının qabarıq almacıq sümükləri üzünə zalım bir ifadə qatırdı. Gözlərində isə zalımlıqdan əsər-əlamət yox idi. Qızılı qaşların altından baxan bu gözlər Cənab Dafinin başqalarının çatışmazlıqlarını ört-basdır edə biləcək cəhətləri görməkdən hər zaman məmnunluq duyan, lakin bu qənaətində tez-tez yanılan bir insan olmasını müjdələyirdi. O, daim özünə kənardan baxır, şübhə dolu, çəpəki nəzərlərlə öz hərəkətlərini izləyirdi. Onun xüsusi zövq aldığı qəribə bir vərdişi də vardı: ürəyində özü haqqında üçüncü şəxsin diliylə və keçmiş zamanda qısa fikirlər söyləyirdi. O, adətən qoz ağacından hazırlanmış möhkəm əsasının köməyi ilə, əmin addımlarla yeriyər, heç vaxt dilənçilərə sədəqə verməzdi.

Cənab Dafi uzun illər idi, Beqqot küçəsində yerləşən özəl bankda kassir işləyirdi. O, hər səhər Çepelizodedən işə tramvayla gedir, günortalar qəlyanaltı etməkçün Den Berkə baş çəkir, özüylə bir şüşə pivə və bir qab peçenye aparırdı. Saat dörddə işdən çıxır, Corc küçəsindəki yeməkxanada nahar edirdi. Buranın yeməkləri pis deyildi, üstəlik Dublinin "Qızıl Gəncləri" ilə rastlaşmaq təhlükəsi də yox idi. Axşamlarını ya ev sahibəsinin pianosu arxasında, ya da şəhərətrafı gəzintidə keçirirdi. Motsarta olan məhəbbəti bəzən onun yolunu opera və konsert zallarına salırdı, həyatının yeganə əyləncəsiydi bu.

Tanışları, dostları, dini inanclar, fəlsəfi sistemlər ona yad məsələlər idi. Cənab Dafi heç kimlə ünsiyyət saxlamadan, yalnız Milad bayramında qohumlarına baş çəkirdi, onlar öldükdə isə qəbiristanlığa yola salırdı, beləcə öz aləmində yaşayırdı. O, qədim ənənələrin keşiyində durmaq naminə bu iki borcunu yerinə yetirirdi, ictimai həyatın diktə etdiyi digər şərtiliklərə isə güzəştə getmək niyyətində deyildi. O, müəyyən şərtlər daxilində, hətta bank soya biləcəyini də ehtimal edirdi. Lakin əlinə belə fürsət düşmədiyindən, adəti üzrə həyatı sakit axarıyla davam edirdi: hadisəsiz-filansız povest.

Cənab Dafi bir axşam Rotondda iki xanımla rastlaşdı. Boş zal və sükut uğursuz gecənin nişanəsiydi. Cənab Dafinin yanındakı xanım bir neçə dəfə boş zala boylanıb dedi:

- Heyf, bu gün tamaşaçı çox azdı! Boş zalda oxumaq heç ürəyimə yatmır.

Cənab Dafi qadının bu sözlərini söhbətləşməyə dəvət cəhdi kimi qavradı. Qadının özünü belə sərbəst aparması onu təəccübləndirdi. Qadınla söhbət zamanı, onun üz cizgilərini yaddaşına həkk etməyə çalışırdı. Qadının yanında oturmuş gəncin onun qızı olduğunu biləndə, düşündü ki, həmsöhbəti ondan bir, yaxud bir neçə yaş cavandı. Görünür, bir zamanlar gözəl olan bənizi hələ öz təravətini itirməmişdi. Qadının sərt cizgili uzunsov bənizi vardı. Tünd mavi gözləri adamın qəlbinə yatırdı. Baxışları əvvəl cənab Dafiyə açıq-saçıqlıq təsiri bağışlasa da, qəfildən bəbəkləri genişlənəndə, bu gözlərdən son dərəcə kövrək bir qəlbin boylandığını gördü. Amma çox keçmədi ki, bəbəklər yenidən kiçildi, kövrək qəlb utancaqlıq qınının içində gizləndi. Qabarıq sinəsinə yapışmış, qaragülçə dərili gödəkcəsi onun ədalarını daha çox gözə çapdırırdı.

Cənab Dafi bir neçə həftə sonra Erlsfort-Terresdə keçirilən konsertdə yenidən həmin qadınla rastlaşdı, qızının diqqəti ayrı səmtə yönələndə, anayla daha yaxından tanış olmaq fürsətini fövtə vermədi.

Söhbət zamanı qadın həyat yoldaşını iki dəfə xatırlasa da, nədən ehtiyatlandığı səsindən sezilmədi. Qadının adı xanım Siniko idi. Sən demə, ərinin ulu babası, əslən Livornadan imiş, Dublinlə Hollandiya arasında işləyən ticarət gəmisinin kapitanı olmuşdu. Bu

qadından savayı övladları yox idi.

Cənab Dafi üçüncü dəfə xanım Siniko ilə təsadüfən rastlaşanda, nəhayət, görüş təyin eləməyə cürət etdi. Bu, onların ilk görüşü idi. Bundan sonra onlar birgə gəzintilər üçün ən sakit küçələri seçməklə, müntəzəm şəkildə görüşməyə başladılar. Lakin bu görüşlərin yalnız xəlvət gerçəkləşdiyini anlayan, bu sirlilikdən ikrah hissi keçirən Cənab Dafi xahiş etdi ki, xanım Siniko, onu öz evinə dəvət etsin.

Kapitan Siniko elə düşünürdü ki, cənab Dafi onun qızıyla evlənmək istəyir, bu səbəbdən onu tez- tez qonaq gəlməyə həvəsləndirirdi. Öz xanımını isə kapitan Siniko çoxdan maraqlı qadınlar sırasından çıxdaş etmişdi. Kiminsə, onun arvadı ilə maraqlana biləcəyini heç ağlının ucundan da keçirmirdi. Kapitan tez-tez səfərə çıxdığından, qızı isə musiqi dərslərinə getdiyindən, Cənab Dafi rəfiqəsi ilə görüşməyə tez-tez vaxt tapırdı. Vaxtaşırı öz fikirlərini xanım Siniko ilə bölüşürdü, öz kitablarından bir neçəsini ona verirdi, düşüncələrini paylaşırdı, daxili dünyasının qapılarını taybatay açırdı. Xanım Siniko sevincindən uçum-uçum uçunurdu.

Bəzən xanım Siniko özü də Cənab Dafinin mücərrəd mülahizələrindən doğan səmimiyyətlə həyatında baş vermiş hansısa hadisəni nəql edirdi. Xanım Siniko az qala ana qayğısıyla cənab Dafiyə yanaşırdı, ürəyini açmasına imkan yaradırdı. Cənab Dafi rəfiqəsinə bir müddət irland sosialist partiyasının iclaslarında iştirak etməsindən, neft lampasıyla işıqlandırılmış darısqal otaqda yaşlı işçilər arasında özünü yad birisi saymasından, partiya üç fraksiyaya ayrıldıqdan və hər bir qrup öz lideri ilə ayrıca otaqda toplaşmağa başladıqdan sonra isə daha iclaslara qatılmamasından, işçilər arasında gedən müzakirələrin ona bəsit görünməsindən, əmək haqqı məsələsinə hədsiz maraqlarının onda ikrah doğurmasından danışırdı. Cənab Dafi, onların öz fikirlərini ifadə etməyə qadir olmayan kobud materialist olduqlarını duyurdu. Belə bir vərdiş işçilər üçün əlçatmaz olan asudə vaxtının nəticəsiydi. "Dublində sosialist inqilabı heç iki yüz-üç yüz il sonra da baş verməyəcək" – o, deyirdi.

Xanım Siniko ondan, nə üçün fikirlərini yazmadığını soruşurdu. "Axı nə üçün yazım?" – cənab Dafi saxta etinasızlıqla soruşurdu. Altmış saniyə ərzində ardıcıl düşünməyə qadir olmayan ağızdanpərtövlərə rəqib olmaq üçünmü? Yoxsa əqidələrini polislərə, sənətlərini təlxəklərə həvalə edən kütbeyin meşşanların hücumlarına məruz qalmaq üçünmü?

Cənab Dafi vaxtaşırı xanım Sinikonun Dublin yaxınlığında yerləşmiş kiçik kottecində olurdu. Aralarındakı ruhi bağlar artdıqca, daha intim mövzulara keçirdilər. Xanım Siniko dəfələrlə Cənab Dafi ilə lampanı yandırmadan, qaranlıqda yanaşı əyləşirdi. Sakit qaranlıq otaq, hələ də qulaqlarında pıçıldayan musiqi onları bir-birlərinə yaxınlaşdırırdı. Bu yaxınlıq Cənab Dafini ruhlandırır, xasiyyətindəki kəskinliyi azaldır, daxili aləmini emosiyalarla zənginləşdirirdi. Bəzən o özü öz səsinə qulaq asdığını duyurdu, xanım Sinikonun gözündə, az qala mələk kimi ucaldığını anlayırdı. Təbiətcə ehtiraslı rəfiqəsini getdikcə özünə daha çox cəlb etsə də, daxili səsi ruhunun çıxılmaz tənhalığından xəbər verirdi. "Özümüzü verə bilmərik", - səsi deyirdi, - biz yalnız özümüzə məxsusuq".

Bütün bu söhbətlər onunla bitdi ki, bir axşam xanım Siniko ehtirasa gəlib, Cənab Dafinin əlini yanağına dayadı.

Cənab Dafi qadının bu hərəkətindən son dərəcə sarsıldı. Aralarında olan söhbətlərin bu cür yozumu onun bütün xəyallarını dağıtdı. O, bir həftə rəfiqəsinin yanına getmədi, sonra ona məktub yazıb görüşməyə izn istədi. Son görüşlərini, tövbə sehrinin yox olması fikri ilə korlamaq istəmədiyindən, rəfiqəsini Feniks Parkının darvazası yanındakı kiçik qənnadı mağazasına dəvət elədi. Onlar soyuq payız günü, havanın sərtliyinə baxmayaraq, üç saat

şəhər küçələrində gəzişdilər. Daha görüşməmək qərarına gəldilər.

Hər bir ittifaqın sonu kədərdir, - Cənab Dafi dedi.

Parkdan çıxıb sakitcə tramvaya yaxınlaşdılar. Bu vaxt xanım Siniko əsim-əsim əsməyə başladı. Cənab Dafi qadının növbəti ehtiras tutmasından çəkinib, ondan uzaqlaşmağa tələsdi.

Bu hadisədən dörd il ötdü. Cənab Dafi öz intizamlı həyat tərzinə qayıtmışdı. Evi də həmişəki kimi, nizam-intizama sevgini müjdələyirdi. Birinci mərtəbədəki otaqda, püpitrdə yeni notlar peyda olmuşdu. Kitab rəfinə isə Nitsşenin "Zərdüşt belə deyirdi" və "Şad-xürrəm elm" kitabları yerləşdirilmişdi. İndi o yeşikdəki vərəqlərə nadir hallarda nəsə yazırdı. Xanım Siniko ilə son görüşdən iki ay sonra yazılmış qeyddə deyilirdi: "Qadınla kişi arasında məhəbbət mümkün deyil, çünki fiziki meyl yolverilməzdir; kişi ilə qadın arasında dostluq qeyri-mümkündür, çünki fiziki meyl qaçılmazdır". O, xanım Siniko ilə qarşılaşmaq istəmədiyindən, daha konsertlərə də getmirdi.

Atası öldü, bankın kiçik şəriki işdən imtina etdi. Cənab Dafi isə həmişəki kimi, hər səhər tramvayla şəhərə gəlir, hər axşam şəhərdən piyada qayıdır, Corc küçəsində təvazö nahar edir, desert əvəzi axşam qəzetini oxuyurdu.

Bir axşam isə duzlu kələmli əti ağzına aparan əli havada donub qaldı. Qəfildən gözləri, qrafinə söykəyib oxuduğu qəzetdəki qeydlərdən birinə sataşdı. O, tikəsini boşqaba qoyub, diqqətlə qeydi oxudu. Sonra bir stəkan su içib, boşqabı kənara çəkdi, qəzeti stolun üstünə sərib, qeydi bir neçə dəfə başdan-ayağa oxudu. Boşqabdakı kələm, donmuş yağ təbəqəsi ilə örtüldü. Xidmətçi qadın ona yaxınlaşıb yeməyin dadlı olub-olmadığını soruşdu. O: - Yemək çox dadlıdır - deyib ikinci tikəni birtəhər uddu, sonra hesabı ödəyib yeməkxanadan çıxdı.

O, noyabr alatoranlığında qoz ağacından hazırlanmış əsasını səkidə ahənglə taqqıldada-taqqıldada sürətlə addımlayırdı, "Meyl" qəzetinin sarımtıl kənarları, dar paltonun qoltuğundan boylanırdı. Feniks parkı ilə Çepelizode arasında bir kimsənin olmadığı yola çatanda, addımlarını yavaşıtdı, əl ağacı daha əvvəki kimi səkiyə çırpılmırdı. Evə çatan kimi yataq otağına keçib qəzeti cibindən çıxardı, pəncərənin öləziyən işığında məlumatı bir daha oxudu. Ucadan oxumasa da, dua oxuyan keşişlər kimi dodaqlarını tərpətdi.

Məlumatda deyilirdi:

## SİDNİ-PAREYDDƏ QADIN ÖLÜMÜ

***BƏDBƏXT HADİSƏ***

"Dünən Dublin şəhər xəstəxanasında (Cənab Leverret olmadığından) koronerin müavini tərəfindən Sidni-Pareyd stansiyasında həlak olmuş qırx üç yaşlı xanım Emili Sinikonun ölümü ilə bağlı istintaq aparılıb. İfadələrdən məlum olub ki, mərhum relslərin üstündən keçməyə çalışarkən, Kinqztaundan yola çıxmış sərnişin qatarı tərəfindən vurulmuş, başından və sağ böyründən aldığı ağır xəsarət nəticəsində dünyasını dəyişmişdir.

Maşinist Ceyms Lennen öz ifadəsində, on beş yaşından bəri dəmiryol şirkətində çalışdığını bildirib. O, qatar növbətçisinin fiti ilə qatarı hərəkətə gətirmiş və ucadan qışqırıq səsləri eşitdiyindən cəmi bir saniyə sonra dayandırıbmış. Qatar asta hərəkət edirmiş. Yükdaşıyan P. Denn, qatar yerindən tərpənəndə yolu keçməyə çalışan bir qadını gördüyünü deyib. O, qadına sarı atılıb, qışqırmağa başlasa da, vaxtında yetişə bilməyib.

Vəkil: - Qadının yıxıldığını gördünüzmü?

Şahid: - Bəli.

Polis serjantı Krouli hadisə yerinə çatanda, mərhumun heç bir həyat əlaməti olmayan bədənini perronda aşkar etdiyini bildirib. O, sanitar arabası gətirilənədək mərhumun gözləmə otağına aparılması barədə göstəriş verib. Əlli yeddi nömrə nişanlı konstebl deyilənləri təsdiqləyib.

Qraflığın yerli orqanlarında çalışan səlahiyyətli şəxslər şübhəli şəraitdə zorakılıqla və ya qəfildən baş vermiş ölümün təfərrüatlarını aydınlaşdırır.

Dublin şəhər xəstəxanasının cərrahı həkim Holpin mərhumun qabırğalarında iki sınıq, sağ çiynində ağır xəsarət aşkar edildiyini bildirib. Başın sağ tərəfi, yıxılan zaman xəsarət alıb. Lakin bu zədələr, normal vəziyyətdə olan insanın ölüm həddinə çatması üçün kifayət deyil. Onun fikrincə, xanım Siniko şokdan və qəfil ürəktutmasından vəfat edib.

Cənab H. B. Petterson dəmiryol şirkəti adından, bədbəxt hadisə ilə əlaqədar dərin kədər duyduğunu bildirib. Hər bir stansiyadan xəbərdaredici nişanlar asmış, hər stansiyada şlaqbaum quraşdırmış şirkət insanların, yolu yalnız körpü vasitəsilə keçməsi üçün bütün tədbirləri görüb. Mərhumun gecə saatlarında yolları keçmək vərdişi varmış, müəyyən şərtlər nəzərə alınmaqla, o, dəmiryol işçilərini təqsirkar saymır.

Mərhumun həyat yoldaşı, Leovildə yaşayan kapitan Siniko da ifadə verib. O, mərhumun həyat yoldaşı olduğunu təsdiqləyib. Kapitan Rotterdamdan hələ bu səhər qayıtdığından, hadisə baş verən anda Dublində olub. Onlar iki il əvvəl, xanım Siniko içkiyə qurşananadək, iyirmi iki il ərzində xoşbəxt ömür sürüblər

Xanım Meri Siniko bildirib ki, son zamanlar anası şərab almaq üçün hər axşam evdən çıxarmış. Şahid dəfələrlə anasını dilə tutaraq, onu içkidən çəkindirməyə çalışıb. O, evə hadisədən bir saat sonra qayıtdığını deyib.

Həkimin ifadəsinə əsaslanan hakimlər, Lenneni hər cür məsuliyyətdən azad edib. Koronerin müavini bu qəzanın, əmək fəaliyyəti müddətində şahidi olduğu ən faciəli hadisələrdən biri olduğunu qeyd edərək, kapitan Siniko və qızına başsağlığı verib. O, şirkətə, gələcəkdə bu cür hadisələrin qarşısının alınması üçün ən qatı tədbirləri görməyi məsləhət görüb. İndiki halda isə heç kəs müqəssir deyil".

Cənab Dafi gözlərini qəzetdən ayırıb pəncərədən görünən kədərli axşam mənzərəsinin seyrinə qapıldı. Çay köhnə araq zavodunun böyrüncə sakitcə axırdı, Dyuken yolunun üstündəki evlərdə ara-sıra işıqlar yanırdı. Necə müdhiş bir sonluq!

Xanım Sinikonun ölümü haqqında deyilənlər, bundan başqa, nə zamansa ən müqəddəs hesab elədiyi mövzuları mərhumla bölüşmək cənab Dafini hiddətləndirirdi. Təəssüf dolu artıq-əskik ifadələr, vulqar və alçaq ölüm hadisəsinin təfərrüatlarını gizləmək üçün dilə tutulmuş müxbirlərin ehtiyatlı şərhləri onda ikrah oyadırdı. Emili, özünü alçaltmağı bəs deyilmiş kimi, cənab Dafini də alçaltmışdı. Bu da mərhumun öz ruhuna yaxın saydığı insan!

Dafi əllərində boş içki şüşələri, yırğalana-yırğalana bara tərəf gedən bədbəxtləri yadına saldı. Deməli, o qadın həyat üçün yararsızmış, yaşamaq qabiliyyətindən məhrummuş, belə asanlıqla vərdişinin qurbanına çevrilə bilərmiş. Dafi özünü qınayırdı, necə bu qədər alçalarmış? Necə bu qadına aldanarmış? Rəfiqəsinin həmin axşamkı ehtiras tutmasını xatırladı, xəyalında onu daha kəskin qınadı və o zaman düzgün hərəkət etdiyinin bir daha fərqinə vardı.

Hava qaralırdı... Fikri özündə deyildi. Birdən Emili əlinə toxundu. Bir vaxtlar ikrah oyadan təmasdan bu dəfə bədəni titrətdi. O, cəld şlyapasını, paltosunu geyinib küçəyə

götürüldü. Soyuq külək onu kandarda yaxalayıb, paltosunun qollarından içəri soxuldu. Çepelizade körpüsünün yanındakı bara çatan Cənab Dafi içəri keçdi və özünə qaynar punş sifariş verdi.

Bar sahibi ona canla-başla qulluq göstərsə də, söhbətə tutmağa ürək eləmirdi. Barda Kilder qraflığındakı hansısa mülkün dəyəri haqqında beş-altı işçi arasında qızğın mübahisə gedirdi. Onlar siqaretdən tüstülədib, iri parçlardan pivə içir, elə hey yerə tüpürür, ağır çəkmələri ilə tüpürcəklərini döşəməyə yaxırdılar. Cənab Dafinin gözlərini bu işçilərdən başqa bir kimsə də olsun çəkmirdi.

Az sonra işçilər çıxıb getdilər. O isə ikinci punşu sifariş verdi, piştaxtanın arxasında xeyli əyləşdi.

Bara sakitlik çökdü. Bar sahibi piştaxtaya söykənib, əsnəyə-əsnəyə "Herald"ı oxuyurdu. Kimsəsiz yolda arabir tramvay səsi eşidilirdi.

Cənab Dafi xanım Siniko ilə keçirdiyi günləri xatırlayırdı. İndi o dəqiq bilirdi ki, rəfiqəsi daha yoxdur, xatirəyə çevrilib. Halı qəfildən pisləşdi. "Başqa cür hərəkət edə bilərdimmi?" – öz-özündən soruşdu. Axı o, riyakarlıq edib, xanım Sinikoya əvvəlki səmimiyyətlə yanaşa bilməzdimi?! Düzgün hesab elədiyi hərəkəti eləmişdi. Bəs günahı nəydi? İndi o da ölənədək, yoxa çıxanadək, xatirəyə çevrilənədək tək-tənha yaşayacaq, əlbəttə, kimsə onu xatırlasa.

Cənab Dafi bardan çıxanda, saat artıq on idi.

Soyuq və qaranlıq bir gecəydi. O, yaxınlıqdakı darvazadan Feniks parkına daxil olub, çılpaq ağacların altıyla addımladı, dörd il əvvəl rəfiqəsiylə birlikdə gəzişdiyi qaranlıq xiyabanları dolaşdı. Ona elə gəlirdi ki, qaranlıqda Emili ilə yanaşı addımlayır. Arabir onun səsini eşidir, əlinin təmasını duyurdu. Birdən ayaq saxlayıb sükutu dinşədi.

Axı nədən onun həyatını əlindən aldı? Nədən onu ölümə məhkum etdi? Cənab Dafinin bitkin və təmkinli dünyası bir anın içində alt-üst olmuşdu...

O, Meqezin Hillin zirvəsinə qalxıb, işıqları soyuq gecəyə hərarətiylə mehribanlıq qatan Dublinə axan çaya baxdı. Təpənin ətəyindən aşağı baxıb, hasarın kölgəsində dayanmış tutqun fiqurları gördü. Günah dolu gizli məhəbbəti qəlbini kədərə bürümüşdü. O, indi bütün əxlaqi dəyərlərə nifrət edir, həyat nəşəsindən sürgün edildiyini hiss edirdi. Bir varlıq onu sevmişdi. Cənab Dafi isə onu həyatdan, xoşbəxtlikdən məhrum etmiş, onu rüsvayçılığa, biabırçı ölümə məhkum etmişdi. Aşağıda, hasarın yanına səpələnmiş məxluqların onu müşahidə etdiklərini, çıxıb getməyini gözlədiklərini başa düşdü. Burula-burula Dublinə tərəf axan boz rəngli, parlaq çaya nəzər saldı. Çayın o tayında Kinqz-Bric stansiyasından tərpənib, dumanın arasıyla, alov başlı soxulcan kimi, asta-asta hərəkət edən yük qatarını gördü. Qatar yavaş-yavaş gözdən itsə də, təkərlərinin taqqıltısı uzun müddət Emilinin adını təkrarladı.

O, gəldiyi yola buruldu. Qatarın ahəngdar səsi hələ də qulaqlarındaydı... Ağaclardan birinin altında dayanıb, qulağından küy kəsilənədək gözlədi. Artıq xanım Sinikonun təmasını duymurdu, rəfiqəsinin səsi daha onu narahat etmirdi.

Cənab Dafi bir neçə dəqiqə sükutu dinşədi... Heç nə eşitmirdi. Bir daha yan-yörəsini dinşədi: səssizlik.

Onu büsbütün yalqızlıq bürümüşdü.

*Tərcümə*: **Ramil Rahiboğlu**



# TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏR

## NİDERLAND






















# İTALİYA

## ÇEZENA

Kitabxananın maraqlı yaranma tarixi vardır. 1445-ci ildə Roma papası IV Yevgeniy İtaliyanın şimalındakı Çezena şəhərindəki monastırın rahiblərindən növbəti kapellanın yox, kitabxananın tikilməsi haqqında təklif alır və razılaşır.

Şəhərin hakimi, 27 yaşlı Malatesta Novello Malatesti böyük şövqlə bu işə dəstək verir və 1452-ci ildə kitabxananın açılış mərasimi keçirilir. Malatestinin hakimlik vəzifəsinin müddəti başa çatandan sonra o, həyatını kitabxana işinə həsr edir və zəngin ədəbiyyat toplayır.

Hazırda kitabxananın fondu beş mindən artıq müxtəlif təyinatlı ədəbiyyatdan ibarətdir. 2005-ci ildə Malatestiana kitabxanası UNESCO tərəfindən– Bəşəriyyətin sənədli irsinin müdafiəsi proqramı olan "Dünya yaddaşı"na daxil edilmişdir.

# MALATESTİANA KİTABXANASI



www.dunyaschool.edu.az

XƏZƏR UNİVERSİTETİ
DÜNYA MƏKTƏBİ

BEYNƏLXALQ
BAKALAVR
TƏŞKİLATI

# XƏZƏR UNİVERSİTETİ DÜNYA MƏKTƏBİNDƏ 2018-2019-CU TƏDRİS İLİ ÜÇÜN ŞAGİRD QƏBULU ELANI



Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Qəbul imtahanında ən yüksək nəticə göstərən şagirdlər təqaüd imkanı qazanırlar.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur.İngilis dilinin tədrisi beynəlxalq standartlara uyğun təşkil olunmuşdur.

Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Məktəbdə təcrübəli yerli pedaqoqlar və xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Məktəbdə bilik və tərbiyə ilə yanaşı, sosial fəaliyyətlərə də böyük əhəmiyyət verilir.

AZƏRBAYCAN BÖLMƏSİ
I-XI
RUS BÖLMƏSİ
I-XI
İNGİLİS BÖLMƏSİ
I-XI
SİNİFLƏRƏ

Dünya məktəbində Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization – IBO) ibtidai, orta məktəb və Diplom proqramları fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

## BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIĞA ŞAGİRD (4-5, 5-6 yaş) QƏBULU DAVAM EDİR.



Keyfiyyətli təhsil, sağlam yaradıcı mühit şagirdləri öyrənməyə həvəsləndirir. Gündəlik dərs proqramından əlavə şahmat, kompüter, psixologiya, rəsm,texnologiya, musiqi, rəqs, dram və üzgüçülük dərsləri keçirilir, ən önəmli bacarlq və vərdişlər formalaşır. Təhsil azərbaycan, rus və ingilis dillərində aparılır.

SİZİ GÖZLƏYİRİK.
DÜNYA MƏKTƏBİ SİZİN ARZULARINIZI GERÇƏKLƏŞDİRƏN BİR MƏKTƏB. BİZİ SEÇSƏNİZ, İNANIRIQ Kİ, SƏHV ETMƏZSİNİZ. DÜNYANI DÜNYA MƏKTƏBİNDƏ KƏŞF EDƏCƏKSİNİZ.


Bakı, Əcəmi Naxçıvani 9
Tel: (+99412) 563 59 40/47/48
Mob: (+99470) 844 08 88

E-mail: info@dunyaschool.az
URL: www.dunyaschool.edu.az

Sumqayıt, Bakı küçəsi 37
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informatika müəllimliyi
* Fizika müəllimliyi

### 2 QRUP

* Mühasibat uçotu və audit
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm və otelçilik
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya

### 5 QRUP

* Dizayn